"Ertoba": Gürcü dilində "birlik" deməkdir. Gürcülər bu adla qəzetlər buraxmış, mədəniyyət mərkəzləri qurmuşlar.

səh. 388. "müttəhim (?) müsəlmanlara": sual işarəsi qəzetdə getmişdir.

**Dağıstan əhvalı**

səh. 391. "Tan": 1861-1942-ci illərdə Parisdə fransız dilində nəşr edilən gündəlik "Le Temps" qəzeti nəzərdə tutulur.

**"Yüz il idi" şeiri (səh. 392) üçün lüğət:**

teyyib: saf, təmiz

məsrur: sevincli

"Yüz il idi hürr nurunu bu vətənə saçmayaraq": bu misrada şeirin vəzni pozulmuşdur.

"Böyük Cavad, Şamillərin qulaq verin səsinə": Rusiya imperiyasının işğalçı orduları ilə qəhrəmanca döyüşmüş Gəncə xanı Cavad xan və Qafqaz dağlılarının rəhbəri Şeyx Şamil nəzərdə tutulur.

**Vükəla Şurasında**

səh. 392. "Astraxanka": Şamaxının kəndi; indiki Qızmeydan kəndi.

**Mətbuat**

səh. 394. "Şeyx Uzun Hacıları, Şeyx Əli Hacıları": Dağıstanın ictimai-siyasi xadimləri Uzun Hacı Saltınski və Əli Hacı Akuşinski nəzərdə tutulur.

**Bakı xəbərləri**

səh. 398. "Boji promısel": (yaxud Allah mədəni) indiki Neftçala rayonunun Tatarməhlə kəndində XIX əsrin əvvəllərində yaradılmış balıqçılıq müəssisəsi.

"barkaz": (yaxud barkas) əsasən liman daxilində istifadə edilən kiçik ölçülü gəmi.

səh. 399. "Martınov": 1909-1916-cı illərdə Bakının Bələdiyyə sədri olan Pyotr İvanoviç Martınov nəzərdə tutulur.

**Azərbaycanda**

səh. 401. "üşr": əkinlərdən məhsulun onda biri miqdarında alınan vergi.

"1337-ci sənə": burada tarix hicri təqvimlə göstərilmişdir; miladi təqvimlə 1918-1919-cu illərə uyğundur.

səh. 402. "evdə beş nəfər varsa": qəzetdə belə getmişdir: "evdə bir nəfər varsa".





**Çərşənbə, 28 may 1919-cu il, nömrə 190**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Çaharşənbə, 27 şabanül-müəzzəm sənə 1337. 28 mayıs 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 1 manat 50 qəpik.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 30 rublə, 2 aylığı 35 rublə, 3 aylığı 50 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 25 rublə, 2 aylığı 45 rublə, 3 aylığı 60 rublə. Elan fiatı: birinci səhifədə sətri 4 rublə, axırıncı səhifədə sətri 3 rublə, itən şeylər və yer axtaranlar üçün 2 rublə.**

**DARDANEL LOKANTASI**

Həmin may ayının 28-ci günü Azərbaycan istiqlaliyyətinin bir sənəliyi münasibətilə "Dardanel" lokantasında rumın orkestri və Asiya musiqisi çalıb, xanəndələr oxuyacaqdırlar.

*T-139*

**ELAN**

Be-münasibəti-ruzi-tacgüzariyi-**əlahəzrət Sultan Əhməd şah Qacar halledallahu mülkəhu və səltənətəhu** ruzi-çaharşənbə 27 şəhri-şəbanülmüəzzəm dər-konsulgəriyi-dövləti-aliyyəyi-İran əz saati-dehi-sübh ila saati-doyi-bədəzzühr pəziraiyi-rəsmi-beəməl xahəd-aməd.

Bər-ümumi-iraniyan lazeməst ki dərruzi-məzkur mərasimi-çeşni-tacgüzari ra mücri darənd.

*Konsuli-dövləti-aliyyəyi-İran*
*Məhəmməd Səidülvüzəra*
*8794*

**BULVARDA YENİ AÇILMIŞ QƏHVƏXANA**

*İstanbulun birinci şöbəsi*

Qəhvəxana Gömrükxana qarşısında vaqe olub hərbi məmurlar üçün 10 faiz güzəşt edilir.

*Kamali-ehtiramla Səməd Zeynalov*
*8793*

*Teatro mövsümü bağlanır*

**HÖKUMƏT TEATROSUNDA AXŞAM TAMAŞASI**

Bu mövsümdə axırıncı opera və operetta tamaşaları.
Səşənbə günü şabanül-müəzzəm ayının 26-sında (mayısın 27-sində) 1337-1919-cu ildə axırıncı dəfə olaraq **"Arşın mal alan"** operettası, çaharşənbə günü şabanül-müəzzəmin 27-sində (mayısın 28-ində) **Azərbaycan istiqlaliyyətinin səneyi-dövriyyəsi münasibətilə "Leyli və Məcnun"** operası və **"Azərbaycan"** faciəsi, və cümə günü şabanül-müəzzəmin 29-da (mayısın 30-da) **"Aşıq Qərib"** operası təntənəli bir surətdə mövqeyi-tamaşaya qoyulacaqdır və məzkur tamaşalardan sonra teatro mövsümü gələn sentyabradək bağlanır. Bu tamaşaların biletləri indidən satılmaqdadır. Tamaşa başlanacaqdır axşam saat 8-in yarısında.

*Hacıbəyli Qardaşları*
*Müdiriyyəti*
*T-136*

**ELAN**

1919 mayıs 28-də çaharşənbə günü saat 11-də Azərbaycan Cümhuriyyəti istiqlalı elanının səneyi-dövriyyəsi münasibətilə Azərbaycan Məclisi-Məbusanının fövqəladə təntənəli iclası olacağı elan olunur.

**ELAN**

Bakı Şəhər İdarəsi sədri üzvlərdən xahiş edir çaharşənbə günü may ayının 28-də saat 1-də Azərbaycan istiqlaliyyətinin səneyi-dövriyyəsi münasibətilə vaqe olacaq təntənəli iclasa təşrif gətirsinlər.

*T-141*

**BAKI**
**EV SAHİBLƏRİ**
**ŞURASI**

Hamı üzvləri və ev sahiblərini həmin may ayının 30-da cümə günü saat 11-də vaqe olacaq iclasa dəvət edir.

İclas "Obşestvenni sobraniya"nın binasında (Nikolayevski küçədə) vaqe olacaqdır.

Müzakirə ediləcək məsələlər:

1) İdarənin İttifaqın fəaliyyəti barəsində məruzəsi;

2) Şuraya 15 üzv və 10 namizəd seçilməsi barəsində;

3) Təftiş komissiyasına 7 üzv intixabı.

Qeyd 1: İclasda təzə üzvlər yazılacaqdır.

Qeyd 2: Hərgah üzvlərin 1/3-i gəlməzsə, həmin gün saat 12-də (İttifaqın nizamnaməsinin 25-ci maddəsinə binaən [əsasən]) ikinci ümumi iclas təyin olunur.

*T-140*

Azərbaycan Məclisi-Məbusan rəisi naminə gələn ərizələr daxilində bir çox imzasız ərizələrə təsadüf olunur ki, böylə imzasız gələn ərizələrə qanun mövcibincə [qanuna əsasən] əncam edilməyib buraxılmalıdır. Buna binaən [buna görə], Azərbaycan Məclisi-Məbusan naminə gəlmiş olan imzasız ərizələr baxılmamış və əncamsız qaldığı kimi, ərizə sahibi də ərzi-halına əncam ediləcəyini bəkləməkdə qalır. Azərbaycan Məclisi-Məbusan [rəisi] həzrətlərinin əmrlərinə binaən, ərizə göndərən zatlara bununla məlum edilir ki, göndərilən ərzi-halların cümləsi imza edilməlidir. Əks-təqdirdə ərizə sahibinin, hansı səbəbdən dolayı olursa olsun, ərizəsini imza etməmiş olduğu halda göndərilən ərizələr Məclisi-Məbusan tərəfindən sərəncamsız qalır.

*Parlaman İdarəsi vəkili: Vəkilov*
*Kargüzar: C. Paşazadə*
*T-134*

**AVTOMOBİL**

7 yerli, kareti qoz ağacından "Panar Elisar" fabrikası avtomobili 40-60 güclü, ucuz satılır.

Xahiş edənlər: Bazarnı küçədə nömrə 6, İbrahimovun mağazasına müraciət edə bilərlər.

*8796*

**BU NÖMRƏ**
**6 SƏHİFƏDİR.**
**MÜSƏVVƏR [ŞƏKİLLİ]**
**ƏLAVƏSİ VARDIR.**





# YAŞASIN MÜSTƏQİL AZƏRBAYCAN CÜMHURİYYƏTİ!

## AZƏRBAYCAN VƏTƏNDAŞLARINA HÖKUMƏTİN MÜRACİƏTİ

Azərbaycan vətəndaşları!

Bir sənə bundan əqdəm [əvvəl] məbuslarınızın rəy və arzusu mövcibincə [rəy və arzusuna uyğun olaraq], Azərbaycan xalqı müstəqil yaşayış təriqinə [yoluna] qədəm qoydu. 1919-cu sənəsi mayın 28-i Azərbaycan Cümhuriyyətinin milli bayramıdır. Öylə bir bayram ki, onun xatiri ümum Azərbaycan vətəndaşları üçün daima möhtərəm və müqəddəs sayılacaqdır. Çünki kəndi dövlətinizin milli bayrağı altında keçmiş olduğunuz bir sənəlik azad və zəhmətli həyatınız Azərbaycanın böylə tarixi bir gün[ü] olduğunu sizə sözdən artıq izah edir. Siz, çarizmin ən ağır tarixini keçirmişsiniz. O, sizin ən gözəl hissiyyatınızı, mədəniyyət və müqəddəs əməllərinizi [arzularınızı] ayaqları altında tapdamış və məhv etmək istəmişdir. Biz hər bir hüquqdan və mədəni tərəqqiyyatdan və ən ibtidai siyasətdən belə məhrum olmuşduq. Bizim gözəl arzularımız qəti surətdə əzilir və ayaqlar altına alınırdı. Sizin nəzərlərinizdən bolşevik hərc-mərcliyi, onun o mənhus dövrü keçmişdir. Kəndi evlərinizin talan və qarət edilib, uşaqlar və qadınlarınızın böyük fəlakət və müsibətlərə düşdüyünü və təhəmmül etdiyini [dözdüyünü] gördünüz.

Qan dəryasında qutəvər olan [üzən] Azərbaycan türk milləti kəndi müqəddəratı öhdəsinə olaraq öz başına buraxılmışdı.

O, mətanəti-qəlb və əzmi-qəti ilə istiqbalı [gələcəyi] düşünərək yaşayır və bilaxirə müstəqil və azad yaşamaq yolu arayıb ona rəvan oldu. Öylə bir yol ki, onu ümum cahanın əzilmiş və döyülmüş millətləri tutmuşdu. Bu yoldan isə həməvəqt [heç bir zaman] geri dönmək, qayıtmaq yoxdur, ola da bilməz.

Bu bir sənə ərzi-müddətində biz yorulmadan işlədik və bu işləməyimizlə dövlətimizi möhkəmləşdirərək camaatımızın aşağı sinifinə milli dövlət təşkili hissini düşündürdük və göstərdik ki, camaat və millət məbuslarının getdikləri yol doğru və xalqın azadə fikir və məsləkidir. Bu az vaxt zərfində Azərbaycan türkləri kəndilərinin müstəqil və azadə yaşamağa layiq olduqlarını gözəl surətdə göstərib və dövlət təşkilinə istedad və qabiliyyət yetirdiklərini isbat etdilər. Bunun sayəsində isə şimdi məmləkətdə insanı məmnun edəcək bir dərəcədə nizam və asayiş hökmfərmadır [hökm sürməkdədir]. Dövlətin fəaliyyəti isə bir dəqiqə də olsa təxir etməyib, həman hökumət işlərində davam etməkdədir. İnqilabın bizə vermiş olduğu səmərəsi mühafizə edilməklə bərabər, siz indi Məclisi-Müəssisan seçkiləri ərəfəsindəsiniz. Bu Məclisdə Azərbaycan milləti kəndi fikir və rəyini aşkar edəcəkdir. İstiqlaliyyəti müdafiə və mühafizə etmək ümum Azərbaycan xalqının müqəddəs vəzifəsidir.

Azərbaycan vətəndaşları! Təhlükə və təhdid hələ rəf olmamışdır [aradan qaldırılmamışdır]. Bizim üzərimizə qara bulud-

## YAŞASIN TƏYİNİ-MÜQƏDDƏRAT HÜQUQU!

lar gəlməkdədir. Bizim daxildəki hərəkatımız və nizam və asayişimiz təmin edilərsə, istiqlaliyyətmizi təhdid edən qüvvələrə yol verməz və rahat və azadə yaşamağa malik olarız.

Azərbaycan vətəndaşları!

Mayın 28-i böyük və ümumi bir bayram hesab edilməlidir. Bu gündə bilafərqi-millət hər kəs özünü müsavi hüquqla Azərbaycan vətəndaşı hiss etməlidir. Bu gün ümum cahan millətlərinin ədalət üzrə olan hüquq və ixtiyaratının təmin edilən günlərindən bir gündür. Azərbaycan millətinin ittihad və ittifaqına istinad edərək və buna ümidini izhar etməklə, hökumət Azərbaycan Cümhuriyyətinin ikinci sənəsinə qədəmnihad olur [qədəm qoyur].

Ümum Azərbaycan vətəndaşlarının qüvvə və müavinətinə ümidlə hökumət onları dövlət bayramı ilə təbrik edir.

*Azərbaycan Vükəla Şurası Rəisi və Daxiliyyə naziri: Nəsib bəy Yusifbəyli*

### AZƏRBAYCAN İSTİQLALINI MÜBƏYYİN [BƏYAN EDƏN] ƏQDNAMƏ

Böyük Rusiya inqilabının cərəyanı ilə dövlət vücudunun ayrı-ayrı hissələrə ayrılmasıyla Zaqafqaziyanın rus orduları tərəfindən tərkini mövcib bir vəziyyəti-siyasiyyə hasil oldu. Kəndi qüvayi-məxsusələrinə tərk olunan Zaqafqaziya millətləri, müqəddəratlarının idarəsini bizzat kəndi əllərinə alaraq Zaqafqaziya Qoşma [Federativ] Xalq Cümhuriyyətini təsis etdilər. Vəqayei-siyasiyyənin [siyasi hadisələrin] inkişaf etməsi üzərinə gürcü milləti Zaqafqaziya Qoşma Xalq Cümhuriyyəti cüz'ündən [tərkibindən] çıxıb da müstəqil Gürcü Xalq Cümhuriyyəti təsisini səlah [müvafiq] gördü.

Rusiya ilə Osmanlı imperatorluğu arasında zühur edən müharibənin təsviyəsi [ləğvi] üzündən hasil olan vəziyyəti-hazireyi-siyasiyyə və məmləkət daxilində bulunan misalsız anarşi Cənub-Şərqi Zaqafqaziyadan ibarət bulunan Azərbaycana dəxi bulunduğu xarici və daxili müşkülatdan çıxmaq üçün xüsusi bir dövlət təşkilatı qurmaq lüzumunu təlqin edir.

Buna binaən [buna əsasən] arayi-ümumiyyə ilə intixab olunan [ümumi səsvermə ilə seçilən] Azərbaycan Şurayi-Milliyyeyi-İslamiyyəsi bütün camaata elan edir ki:

1 – Bu gündən etibarən Azərbaycan xalqı hakimiyyət haqqına malik olduğu kimi, Cənub-şərqi Zaqafqaziyadan ibarət Azərbaycan dəxi kamilül-hüquq müstəqil bir dövlətdir.

2 – Müstəqil Azərbaycan dövlətinin şəkli-idarəsi xalq cümhuriyyəti olaraq təqərrür edir [qərarlaşdırılır].

3 – Azərbaycan Xalq Cümhuriyyəti bütün millətlər və bilxassə həmcivar olduğu millət və dövlətlərlə münasibati-həsənə [yaxşı münasibətlər] təsisinə əzm edir.

4 – Azərbaycan Xalq Cümhuriyyəti millət, məzhəb, sinif, silk və cins fərqi gözləmədən, qələmrovunda [hakimiyyəti altında] yaşayan bütün vətəndaşlarına hüquqi-siyasiyyə və vətəniyyə təmin eylər.

5 – Azərbaycan Xalq Cümhuriyyəti, ərazisi daxilində yaşayan bilcümlə millətlərə sərbəstanə inkişafları üçün geniş meydan buraxır.

6 – Məclisi-Müəssisan toplanıncaya qədər Azərbaycan idarəsinin başında arayi-ümumiyyə ilə intixab olunmuş Şurayi-Milli və Şurayi-Milliyə qarşı məsul hökuməti-müvəqqətə durur.

Bu əqdnamə 1918 sənəsi mayıs ayının 28-də Tiflisdə elan olunmuşdur.





## YAŞASIN CAHAN DEMOKRATİYASI!

### İSTİQLALİYYƏT

İnsanlar azadə yaşamaq üçün xəlq olunublar və bu yaşadığımız yer bilatəfavüt insanların ixtiyarlarına vagüzar olubdur [verilib]. Ona görə, hər millətə istiqlaliyyət verilməlidir ki, ta kamali-asudəliklə öz hüquqlarına nail olsunlar.

Peyğəmbərlərin camaata ümdə sözləri bu olubdur: "Ey camaat! Fəqət bir olan Allah-taalaya itaət edin." Bu dəxi ifadə edir ki, Allahdan başqasının bir kəsə təsəllütü yoxdur, bəlkə hamı camaat hüquqda bərabərdir.

Quran ki qəvanini-mədəniyyəti [mədəniyyət qanunlarını] ehtiva etdiyi halda xitabı doğrudan-doğruya ümum xalqadır, bu xitabla hakimiyyəti-xalqı təsis və təmin etmişdir. "La ikrahə fid-din" ayəyi-kərimədsiylə bülənd [uca] bir surətdə hürriyyəti-vicdanı elan buyurmuşdur.

İstiqlaliyyətlə hürriyyəti mühafizə etmək olar. Hər kəs öz sözünü, əqidəsini cürətlə bəyan edər. İstiqlaliyyətlə məktəblərdən və mədrəsələrdən camaata nəf [fayda] verən alimlər peyda olar, ehkami-ilahiyyə dəxi istiqlaliyyət sayəsində intişar tapar [yayılar].

Hər tayfaya istiqlaliyyət lazımdır və buna tərəfdar olmaq ədalətdir. Ədalət isə cümlə əxlaqi-həmidənin [bütün gözəl əxlaqların] əsasıdır. Kim ki, istiqlaliyyətin xilafına hərəkət edər, o, zalımdır və günahsız insanları əsir etmişdir. "Əl-ədl mimarül-ərz" demişlər.

İstirahət və səadəti-ümumiyyə tərəqqi və mədəniyyətlə hasil olar. Tərəqqi və mədəniyyət isə ancaq hər millətin istiqlaliyyətlə yaşamağındadır. İstiqlaliyyəti mühafizə etməkdə çalışmaq eynisəadət və nəhayət kəramətdir. Zira insan başqalarını nə dərəcədə məsud edərsə, özü dəxi o dərəcədə məsud olar.

İnsanı istiqlaliyyətlə yaşamaqdan mane olmaq quşu qəfəs içində saxlamaq kimidir ki, daim özünə nicat yolu axtarar. İştə, millət kəndi hüququna arif olandan sonra daim istiqlaliyyət axtarmaqla, axirüləmr məramına nail olacaqdır. Buna görə, insanı təbiətin xilafına məcbur etmək nəticəsiz böyük zülüm və Haqtaalanın əmrinə müxalifətdir.

İstiqlaliyyəti olmayan millət qanadsız quş kimidir ki, hətta xırdaca uşaqların da əllərindən xilas ola bilməz. Qanadsız quş

## YAŞASIN TÜRK MİLLƏTİ!

başqa quşun qanadıyla uça bilməz. İştə, hüququ əlində olmayan millət də həmişə zülmətlər içində sərgərdan qalıb, başqasının himayəsiylə nicat yolu bulmaz.

*Be-pərri-xiş bayəd kərdi-pərvaz,*
*Be-bali-digəran nətvan pəridən.*

Azərbaycan hökuməti istiqlaliyyət peyda edərsə, islam əhli cəhalət vərtəsindən [təhlükəsindən] xilas olub, dini və mədəni cəhətlərini təmin etmiş olarlar və bununla xilqətin müqtəzasınca [təbiətlərinə uyğun] yaşamağa malik olub islamiyyətin ruhu və həqiqəti zahirə çıxar və bu nöqteyi-nəzərlə də Azərbaycan Hökuməti kəndi istiqlaliyyətini elan etmişdir. Fəqət böylə istiqlaliyyətdən gözəl nəticə almaq vaxta görə maarifi artırmaqla və milli ruhda tərbiyə almaqla mümkün olacaqdır.

*Şeyxülislam*
*Axund Ağa Ağəalizadə*

**NƏ BÖYÜK BAYRAM!**

Azərbaycan türkləri bu gün ilk dəfə olaraq böyük bir bayram saxlayırlar – İstiqlal bayramı!

Bundan bir sənə əvvəl Zaqafqaziyanın müqəddəratını həll üçün Tiflisə toplanmış olan müsəlman vəkilləri tarixin öylə bir anına təsadüf eyləmişlərdi ki, yüz sənəlik dövri-əsarətə yalnız yüksək bir əməl [arzu] nəticəsi deyil, eyni zamanda zəruri bir ehtiyac kimi xatimə vermək məcburiyyətində qalmışlardı.

Əvət, Zaqafqaziya millətləri bilməcburiyyə [məcburi surətdə] elani-istiqlal etmişlərdi.

Bilməcburiyyə elani-istiqlal!

İstiqlalımıza düşmən olanlar bu iki “məcburiyyət” və “istiqlal” sözlərinin bir araya toplanmasını “ictimayi-ziddeyn” [iki ziddin cəmləşməsi] qəbilindən əدد [hesab] etməklə Zaqafqaziya cümhuriyyətlərinin qeyri-təbii olduqlarını isbat etmək istərlər.

Fəqət bu mülahizə zahirdə doğru görünsə də, batində öylə deyildir.

Bir növzadın [körpənin] məşimeyi-madərdən [anasının qarnından] xilas olub da dünyaya gəlməsi heç şübhəsiz bir vəq’eyi-istiqlaldır. Qadının vəzi-həmlinə [yükünü yerə qoymasına, doğmasına] digər təbirlə bizdə “azad olmaq” deyirlər. Halbuki bu “azadlıq” eyni zamanda bir zərurəti-təbiiyyə, bir məcburiyyətdir.

Öylə bir məcburiyyət ki, həyati-aləm ona bağlıdır!

Zaqafqaziya Seyminin elani-istiqlala məxsus olan günündə Kadet firqəsi nümayəndəsi Seym əzalarının [üzvlərinin] o gün vəzifələrinin ağırlığından duyduqları hissiyata tərcüman olaraq, hər kəsi özü kimi təsəvvür edərək: “Baxınız, sanki Seym bir möhtəzirin [can verənin, ölüm ayağında olanın] başı üstündə durmuşdur” dediyinə müqabələtən mən: “Əfv edərsiniz, bu iztirab və əndişə bir möhtəzirin deyil, bir lohusanın* başı üstündə görülən iztirabdır.”

Zaqafqaziya lohusasının “azadlığı” çox müşkülatla olmuşdu. Çünkü birdən üç növzad doğmuşdu:

Gürcüstan, Azərbaycan və Ermənistan!

Hər növzad kimi istiqlal dəxi can kimi sevildiyi halda, canan kimi cəfakardır. Bir növzad paydar olub kəndi başına dolanar bir adam oluncaya qədər ata və anasına nə əndişələr, nə qəmlər, nə qüssələr verməz!

İştə, eyni iztirabları, eyni qüssə və dərdləri, fəqət bununla tövəm [əkiz] olan sevinc və itminanları [xatircəmliyi, könül rahatlığını] biz keçən səneyi-istiqlalda keçirmədikmi?

Mart hadisati-əliməsinin [kədərli Mart hadisələrinin] bir nəticəsi olaraq davam edən Bakı əsarəti, Şamaxının bu dəfə yer altındakı məvaddi-bürkaniyyədən [vulkanik maddələrdən] deyil, insanların fitrətindəki şərarətdən [pisliklərdən] mütəzərrir olub da [ziyan çəkib də] xak ilə yeksan olması, Osmanlı türk qardaşlarımızın son ümidsizlik dəmində yetişib də bizi düşmənlərdən xilası, Bakının istirdadı [geri alınması], sonra ingilislərlə bərabər Biçeraxov və sairələrinin gəlişiylə hasil olan iztirab və əndişə, Parlamanın mütəntən surətdə açılması, Azərbaycan ordusunun vürudu [gəlişi], Qarabağ, Naxçıvan, Lənkəran məsələləri, Dağıstan faciəsi, nəhayət bugünkü şənliklər – iştə, bir sənəlik həyati-istiqlalın xof ilə ümid arasındaki iztirab və itminan dəqiqələri!

Hər nasılsa növzadımız bir yaşına çatdı!

Bu bir ilin ərzində Azərbaycanlıların maddətən verdikləri qurbanlara müqabil qazandıqları yalnız xaricin bizi müstəqil bir millət gibi tanımaya doğru göstərdiyi bəzi təmayülat deyil, ən böyük şey fikri-hürriyyət və istiqlalın artıq milli bir fikir olduğu keyfiyyətidir.

Bundan iki sənə əvvəl biz türkçülər Azərbaycan şüarını böyük güldəstənin rəngin bir gülü kimi təsəvvür etdikdə, yalnız rus kadetləri ilə sosialistlərindən deyil, öz kadetlərimizlə sosialistlərimizdən dəxi müqabilə görürdük.

Bir sənə sonra bütün firqələr bunu bir zərurət kimi qəbul edərək Azərbaycan istiqlalının elanına iştirak etdilər. Bu gün isə hər kəs onu bir mövhibə [nemət, bəxşiş] kimi qarşılayıb bir əməl [arzu] və bir ideal kimi alqışlayır! Bu alqışlar yalnız siyasi firqələrin nümayəndələrindən deyil, ağac tüfənkləri ilə “İləri, iləri!” deyə soqaqları dolaşan gənclərlə, “Azərbaycan əsgəri”ni yaşar gözləri və “Allah bəd nəzərdən saxlasın” duasıyla ötürən camaatdan, nəşeyi-istiqlalı dərk etmiş xalqdan gəlir.

Bundan altı ay əvvəl Azərbaycan Məclisi-Məbusanı açıldığı gün “Bir kərə yüksələn bayraq bir daha enməz!” demişdim.

O zaman, içində bulunduğumuz zaman o qədər müşkül və o qədər pürxof [qorxulu] idi ki, yüksəltdiyimiz bayrağı

* Vəzi-həml edən qadın.

## VAR OLSUN HÜRRİYYƏT VƏ İSTİQLAL,

pək də yüksək qaldırammayır, onu yalnız
Parlaman binasına münhəsir [həsr, məxsus] etdirib
də “müdara” göstərmək [yalandan üzə gülmək, istəmədiyi hala qatlaşmaq] məcburiyyətində qalırdıq.

Bu məcburiyyətdən mütəəssir olan bəzi bədbinlər “Hanı ya bir kərə yüksələn bayraq bir daha endirilməz!” deyirdiniz deyirdilər!

İştə, qoy bugünkü gün, milli bayraqlara boyanmış Azərbaycan paytaxtı o kimi bədbinlərin qəlbini təşfiyə etsin!

Bir sənəlik həyat həqiqətən də göstərdi ki: Bir kərə açılmış livayi-hürriyyət [hürriyyət bayrağı] bir daha bükülməz!

Doğrudur ki, bu gün yüksəltdiyimiz istiqlal bayrağını endirməyə, açdığımız livayi-hürriyyəti bükməyə çalışan düşmənlər var. Bu düşmənlər bu gün hər tərəfdən bizə pusu qurmaqda, bizi təhdid etməkdədirlər.

Fəqət bir tərəfdən millətimizin gündən-günə artan əzmi-millisinə, istiqlal və hürriyyəti yolunda sabit qalacağına, digər tərəfdən də nə desələr desinlər, dünya üzərində təsirsiz qalmayacaq milliyyət fikri-müəzzəminin bilaxirə elanizəfər edəcəyinə inanmaqla, bu, tarixi-millimizdə misli naməsbuq [görünməmiş] böyük bayramla yek-digərimizi təbrik edəlim də, inanalım ki, bir yaşına çatmış növzadi-istiqlal təhlükəli qıranlarını keçirər.

Bir kərə yüksələn livayi-istiqlal bir daha enməz!

*M. Ə. Rəsulzadə*

**BİR YAŞ**

Bu gün, istiqlalını elan etmiş olduğumuz və bu istiqlalı qazanmaq yolunda çaylarca qanlar axıdıb minlərcə xanimanlarımızı xaraba qoyduğumuz bir dövlətin, yəni Azərbaycan Türk dövlətinin bir yaşı tamam olub da, ikinci yaşa qədəm qoyduğu gündür.

Növzad dövlətimizin təvəllüdü, ana vətənin bətnindən doğulması çətinliklə əmələ gəldi. Ana vətən balasını doğarkən, özünü qurban edəcək dərəcəsinə gəlmişdi... Azərbaycan torpağı bir xarabazara, bir viranəyə dönəcəkdi. Onun, o madəri-mehribanın [mehriban anasının] nazik sinəsi, zərif bədəni üzərində gəzən qaba ayaqlar, həm anasını, həm bətnindəki balasını çəkmələrinin təpikləri altında tapdalamaq, əzmək və xurd-xaş etməklə anasını da, balasını da öldürmək istəyirdilər...

Lakin bu zəif sinə içində gizlənmiş olan eşq və məhəbbət o dərəcə böyük bir qüvvəti haiz [qüvvətə malik] idi ki, zəif cism, qüvvətli ruh sayəsində düşmən zülmü qarşısında tab və taqətdən düşməyib yaşamaq və yaşatmaq iqtidarını qeyb etmədi.

Ana Vətən doğdu...

Və bu gün, doğduğu övladının səneyidövriyyəsi münasibətilə bayram qurub və övladını mavi, al və yaşıl rəngli parçalarla bəzəyib, nümayişkaranə bir surətdə bəyani-iftixar etmədədir.

* * *





## QƏHR OLSUN DÜŞMƏNLƏRİ!

Bir yaşlı dövlətimiz gələcəkdə – və yaxın gələcəkdə – türklüyün ümidgahı, islamlığın pənahı və aləmi-mədəniyyətin möhtərəm bir üzvü olacağını hələ bir yaşında olduğu halda hər kəsə bildirmədədir.

Azərbaycanın, türklüyə istiqbal [gələcək] meyvələri yetişdirmək üçün münbit bir torpaq təşkil etdiyini, Osmanlı türk qardaşlarımız dəxi iqrar və etiraf edib bizə ümid nəzəri ilə baxmadadırlar. Filhəqiqə [doğrudan da], Azərbaycan idi ki, türk irqində sağlam bir milliyyət hissi oyatdı, millət nə olduğunu milliyyətini unutmuş türklərə bildirdi: Onlara, sən əvvəl-əvvəl bir türksən, dedi və “türkəm” dedirtdi...

Türk qövmünün dəxi farslar və ərəblər kimi müşərrəf olduqları dini-mübiniislamın [açıq-aşkar meydanda olan islam dininin] – Allahımız bir, peyğəmbərimiz bir, Quranımız bir və binaileyh [ona görə] dinimiz də bir olmalıdır – deyə bu birliyə feil və əməl ilə ilk qədəm qoyan Azərbaycan türkləri oldu desəm, əminəm ki, xəta etmərəm. Bu fikrin Azərbaycan türkləri arasında böyük bir sürətlə intişarını [yayılmasını] və qüvvətlənməsini görənlər sözlərimi təsdiqə məcbur olarlar...

Bizi vəhşi bilənlər və bizdən yalnız qaniçicilik gözləyənlərlə və bizim vücudumuzu aləmi-mədəniyyət üçün təhlükəliədd [hesab] edənlərlə bir balaca təmas lazım imiş ki, bu fikrin və bu nəzərin sırf yalan və yanlış olduğu meydana çıxsın. İngilislər bizim içimizə girərkən, özlərini vəhşi heyvan qarşısına çıxmış bir ovçu vəziyyətində saxlamaq ehtiyatına heç bir lüzum olmadığını bir-iki gündən sonra kamali-təəccüb ilə anladılar və haqqımızda bəsləməkdə olduqları nəzər və təsəvvüratın bilməməzlik və ya düşmənlər təbliği nəticəsi olaraq xəta və yanlış olduğunu da dərk etdilər. Əminəm, bunu da dərk etdilər ki, istibdad altında tərəqqi və təalidən [ucalmaqdan] cəbrən [zorla] məhrum və cəhalətə məhkum edilmiş olan bu millət, azad olduqdan sonra çox çəkməz ki, aləmi-mədəniyyət bazarlarında öz milliyyətləri təqazasıyla [öz milliyyətinin tələbi və ehtiyacı olaraq] əmələ gəlmiş mədəni mətalarını [mallarını] ənzari-bəşəriyyətə [bəşəriyyətin nəzərlərinə] təqdim ilə mədəniyyəti qoca olan millətləri də heyran qoyarlar...

Al rəngi türklüyə, yaşıl rəngi İslamlığa və mavi rəngi də mədəniyyətə işarə olan bayrağımızın mənayi-mənəvisi də budur.

* * *

Adamlar vardı ki, bizim istiqlalımızı istəməyirdilər. Halbuki bizə düşmən deyildilər və bu istəməməzlikləri də düşmənçilik üzündən deyildi. Fəqət onlar qorxurdular, qorxurdular ki, biz hökumət etməyə, məmləkət dolandırmağa, dövlət saxlamağa qabil olmayıb da, müxtəlif millətli təbəəmizin can və malını mühafizə edə bilməyək, məmləkətdə asayiş bərpa edə bilməyək, nizam və qayda qoya bilməyək, siyasiyyatda bacarıqsızlıq göstərib xalqın istirahətini pozaq...

Lakin növzad dövlətimizin yeni başlamış ömrünün günləri və ayları gəlib keçdikcə, bu fikirdəki adamlar öz fikirlərini dəyişməyə məcbur olurdular. Bolşeviklər dövründə həsrətini çəkdiyimiz çörək və çörəkdən də artıq həsrətində olduğumuz əmnü asayişin yoxluğu və camaatı qoz və fındıq kimi bizar edən qətl və qarətin çoxluğu – o da, bu da rəf edildi [aradan qaldırıldı]. Azərbaycan dövləti çörək ilə bərabər əmnü asayişi də iadə etməklə əhalini həm aclıq, həm də qətl və qarət bəlalarından xilas qıldı. Cavan dövlətimiz, dünyanı bürümüş olan sari [yoluxucu] xəstəliklərlə də mədəni və ər bir surətdə mübarizəyə girişib zəfər və müvəffəqiyyət qazandı...

Düşmənlərimizin virdi-zəban [dilinin əzbəri] etdiyi "bəy-xan və şallaq hökuməti" əvəzinə ən demokratik və ən hürriyyətpərvər bir dövlət olduğunu bildirdi. Əhalisinə bir bu qədər geniş və genişliyi heç bir hökumətdə görünməmiş bunca hürriyyət və azadlıqların vücudu qarşısında düşmənlərimizin gözləri heyrətlənib dilləri lal olacaqdı ki, hiylə və təzvirə [saxtakarlığa] əl atıb hökumətimizin bu qədər hürriyyətpərəstliyini cəbunluğa [qorxaqlığa] və səhlkarlığa [asanlıq dalınca qaçmağa] isnad ilə bizi genə də ləkələndirmək istəyirdilər. Lakin bu axırki zabastovkanı, Azərbaycan istiqlalını məhv etmək və məmləkətimizi anarşi halına salmaq niyyətilə qurulmuş zabastovkanı yatırmaq işində hökumətimizin və millətimizin göstərmiş olduğu əzm və səbat, ustadlıq və məharət, düşmənlərimizin bu ləkəsini də üzərimizdən sildi və bu töhməti də rəf etdi...

* * *

İçərisindən çıxan qırmızı təhlükəni rəf və izaləyə [aradan qaldırmağa və yox etməyə] qadir olan bir hökumət və millət, xaricdən sədası gələn qara təhlükəni də dağıtmağa və darmadağın etməyə qadir olmazmı zənn edirsiniz! Siz onun biryaşar olduğuna baxmayın, düşmən dəfində təcrübəsaz olduğuna, türklük və islamlığına məxsus fəzilətlərinə baxıb da əmin olunuz ki, bu hökumət və bu millət öz istiqlalını, öz azadlığını və öz təbəəsini şanlı bir surətdə hər bir düşməndən qorumağa qadirdir və bu qüdrətini lazım olduğu halda isbat edər. Bu təntənəli, cəlal və şükuhlu [böyük, cah-cəlallı] bayramımızı görənlər bunu yəqin bilsin ki, biryaşar cavan Azərbaycan Türk dövlətinin istiqlal mühafizəsindəki şüarı budur ki:

Ölmək var ki, dönmək yoxdur!

Bu gün, bu əziz bayram günü sidqi-dil ilə:

– Yaşasın müstəqil Azərbaycan! – deyənlər əmin olmalı ki, onu müstəqil yaşatmağa qadir olarlar!

*Hacıbəyli Üzeyir*

## ŞƏRƏFLİ BAYRAM

Tam bir il əvvəl bütün dünya qan ilə dəmir arasında əl-ayaq çaldığı, dünyanın yarısı hərc-mərc, başsızlıq, pozğunluq girdabında boğulduğu bir zamanda üzərimizə səadət günəşi doğub əsrlərdən bəridi dərəbəyi idarəsinin pozğunluğu və istibdad yükünün ağırlığı altında əzilib məhv olmaq dərəcəsinə gəlmiş olan vətən və millətimizi istiqlal nuruyla işıqlandırdı.





1334 sənəsi mayısın 28-də bütün mövcudiyyətimiz ortaya qoyulmuşkən Azərbaycan istiqlalı elan edildi.

Bu keyfiyyət yalnız Azərbaycan, yalnız türk aləmi deyil, bütün aləmi-islam tarixinə şanlı bir səhifə qeyd etdirmiş oldu. Zira tarixi-islamda birinci dəfədir ki, bir millət böylə gözəl demokratik bir üsuli-idarə qəbul etmiş olsun – Xalq Cümhuriyyəti.

Bir ildir ki, məzlum və məhkum millətimizi müstəqil elan etdik. Həm də bundan böylə millətimizi hüquqi-bəşəriyyəni təmin və riayətlə bu vaxtadək tarixi-siyasətin doğurmuş olduğu ən demokratik bir üsuli-idarə ilə yaşa[t]maq arzusunda olduğumuzu pişgahi-ənzari-bəşəriyyətdə [bəşəriyyətin gözü qarşısında] nümayiş etdirdik.

Şimdi həman tarixdən tam bir il keçir. Odur ki, bu günü bayram saxlayırız.

Heç kəs inkar etməz ki, siyasət səhnəsində bu gün biz bir məktəbli çocuq kimiyiz. Məktəblərdə adətdir, il başında çocuqları imtahan edər, keçən il zərfində oxuduqlarından nə öyrəndiyini və nasıl oxumuş olduğunu sınarlar.

Bu gün biz dəxi keçirmiş olduğumuz bir illik müstəqil həyatımızı nəzərdən keçirəlim də yuxarı sinfə keçməyə müstəhəq [haqlı] olub-olmadığımızı təyin edəlim.

İstiqlal elan edərkən, millətimiz yarın nə hala düşəcəyini, hanki düşmən tərəfindən yenidən əsarət zəncirinə çəkiləcəyini bilməyirdi. Bütün vətənimiz başsız olub, məmləkət hərc-mərc, qətl və qarət atəşi içində yanırdı. Paytaxtımız başda olmaq üzrə vətənimizin qismi-əzəmi [böyük hissəsi] düşmənlər əlində idi. Müstəqil dövlət həyatı ilə yaşaya biləcəyimizə heç kəs əmin deyildi. Bir qəyyum olmazsa, özümüzü idarə edə bilməyəcəyimizə çoxları inanırdı. O idi ki, məsələn türklər buradan çəkilərkən hamı vətən və istiqlalımızı əldən getmiş hesab edirdi...

Bir il keçdi, paytaxtımızı və məmləkətimizin sair bəzi qismlərini düşməndən təmizlədik, hərcü mərc və qətlqarəti məhvlə asayiş və müsaliməti [əmin-amanlığı] bərpa etdik. Vətənimizi öylə bir hala gətirdik ki, hazırda çox məmləkətlərdən rahat və rifahi-hal ilə yaşayır.

Demokrat bir millətə lazım olan Məclisi-Məbusan, ədalət və qanun kəbəsi olan məhkəmə idarələri və sairə təsis etdik. Hazırda Məclisi-Müəssisan çağırmağa hazırlaşırıq.

Deməli, mədəni, demokrat bir millətə lazım olan hər işi gördük və görməkdəyiz. Bu vəchlə də imtahanımızı verdik və istiqlala istehqaq qazandıq.

Yalnız, adətən bayram günlərində bayram etmək imkanından məhrum olanları da unutmamalıdır. Bu gün həpimiz dərin bir kədərlə etiraf etməliyiz ki, mütəəssifanə [təəssüf ki], bu vaxtadək vətənimizin müxtəlif hissələri (Naxçıvan, Şərur, Borçalı və Lənkəran qəzaları) hələ yabançılar əlindədir.

Binaileyh [ona görə], bu gün bayram saxlarkən, kəbeyi-milliyyəmiz olan Məclisi-Məbusan qarşısında gələn ilki bayramda o qardaşlarımızın da bizimlə iştirak etmələrinə imkan verməyi əhd və ricali-dövlətdən [dövlət xadimlərindən] bu uğurda ciddi tədbirlər ittixazını [tədbirlər görməyi] tələb etməliyiz.

Mübarək olsun İstiqlal bayramı!

*X. İ.*

## HÖKUMƏT BİNASINDA MƏRASİMİ-TƏBRİK

Bu gün
istiqlal səneyi-dövriyyəsi
olmaq münasibətilə
Heyəti-Vükəla rəisi
və nazirlər bizzat
gündüz saat 1-dən 4-ə qədər
qəbuli-təbrikat edəcəkdir.



İlk Azərbaycan Şurayi-Millisi rəisi və
"Müsavat" firqəsi Mərkəz Komitəsi sədri
Rəsulzadə Məhəmməd Əmin

## TÜRK ŞÜƏRASI VƏ İSTİQLAL

*Qəza hər feyzini, hər lütfünü bir vəqt üçün saxlar,*
*Fütur etmə, saqın, millətdəki zə'fü bətaətdən.*
---
*Biz ol ali-hüməm ərbabi-cəhdü ictihadız kim,*
*Cahangiranə bir dövlət çıxardıq bir əşirətdən.*

*Namiq Kamal*

Şüəra və üdəbanın hər əsrdə və hər məkanda mayeyi-iftixarı, amalü əfkarı [arzu və fikirləri] yalnız "məhəbbətdən" ibarət olmuşdur. Təqazayi-zamanəyə [dövrün ehtiyaclarına] görə bu məhəbbət gah mehtablı gecələr, rayihəli növbahar çiçəklərinə, sənubərlərə, cuybarlara [axar sulara]... gah dilfirib [könül alan] məhbubə və sənəmlərə, gah millətə və insaniyyətə və gah da vətənə həsr olunmuşsa da, yenə axırki məqsəd bəni-növi-bəşəri [insanları] biri-birinə alışdırmaq, vətəni, dünyanı sevməkdir. Şüəramızın əsərlərini nəzərdən keçirsək görərik ki, bunların sərməşq ittixaz etdikləri [özlərinə nümunə götürdükləri] məhəbbətin ilk qədəmi eşq və sevdadan başlayıb, bir çox istihalələrdən [dəyişikliklərdən] sonra hürriyyət mənzələsinə [dərəcəsinə] çatır ki, bunun da axırki arzusu istiqlaldır.

Böylə ki, şair bu barədə yazır:

*İki şey sevdirir həyatı bana:*
*Biri hürriyyət, axəri sevda.*
*Edərəm eşq üçün həyatı fəda,*
*Feyzi-hürriyyətin yolunda fəqət*
*Eşqü sevdanı eylərəm ifna!*

Lakin eşq və sevdadan bilavasitə hürriyyət və istiqlala ərişmək mühal və mümtənidir [mümkünsüz və çətindir]. Zira eşq ilə hürriyyətin arasında öylə böyük-böyük uçurumlar, mümaniətlər [maneələr] mövcuddur ki, buralardan millət karvanını təhlükəsiz bir üsulla keçirmək üçün hürriyyətpərvər şüəramızdan böyük zəka və məharətlər tələb olunur. İndi baxalım ki, şüəramız bizi bu uçurumlardan nə kimi vasitələrlə xilas etmişlər.

Məhəbbətin birinci mənzili eşqdir, dedik. İki müxtəlif cinsin arasında peyda olmuş müaşiqəni [eşqi] ən qədim vaxtlardan şüəramız "Leyli və Məcnun" kimi böyük dastanlarda yazdıqları hamının məlumu olduğu üçün bunun üstündə artıq dayanmayacağıq. Ancaq burasını qeyd etməlidir ki, şüəramızın bu müaşiqəyə bu qədər əhəmiyyət verməkləri məhz bundan ötrü idi ki, iki müxtəlif cinslər arasında sıxı və daimi bir məhəbbət hasil olsun. Erkək ilə qadın sədaqətən əl-ələ verib bəni-növi-bəşərin rifahı üçün çalışsınlar.

Məhəbbətin ikinci dərəcəsi həmcinslər arasında, yaxud əfradi-millətin [millət fərdlərinin] ittihadıdır [birliyidir] ki, bunu şair böylə tövsif edir:

*Ümumu müstəfid etməz xüsusun haqqını ibtal,*
*Saqın bir fərdi əzmə, qeyrəti-əfrad lazımsa.*

İttihad yapanların ən böyük vəzifəsi xalqa, millətə xidmət etməkdən ibarətdir ki, böylələrini qiyamətədək unutmayıb bəlkə adlarına abidələr, nişangahlar da rəkz edərlər [qoyarlar, ucaldarlar]. Necə ki, şair deyir:

*Usanmaz kəndini insan bilənlər xalqa xidmətdən,*







Əlimərdan bəy Topçubaşov
Sülh konferansında Azərbaycan
Heyəti-Mürəxxəsəsi rəisi



Həsən bəy Ağayev
Azərbaycan Məclisi-Məbusan
Rəyasəti Baş müavini

*Mürüvvətmənd olan məzluma əl çəkməz ianətdən.*

*Növ'i-insan həşrədək təzim edərlər adına,*

*Kim fədayi-nəfs edərsə cinsinin imdadına.*

İttihadi-millətin ən böyük dostu ədalət və ən böyük düşməni də zülümdür ki, bunu şair böylə təsvir edir:

*Bargahi-ədli viran eyləyənlər, adəmin*

*Başına zindan edər dünyanı abad etsə də.*

*Zalimləri ədlin nə zaman xak edəcəkdir?*

*Məzlumların çıxmadadır göylərə ahı!*

Lakin daş ürəkli və müstəbid hökmdarlara məzlumların ah və nalələri təsir etmədiyindən, şair onları millətin "Janna d'Ark", "Qaribaldi" və "Gavələri" xürucuyla [çıxışıyla] hədələyir, böylə deyir ki:

*Bir əbdi-həbəş dəhrə olar bəxtilə sultan,*

*Zöhhakın edər mülkünü bir Gavə pərişan.*

Məhəbbətin üçüncü dərəcəsi hürriyyətdir ki, bunu Firon, Şəddad, Zöhhak və Nikolay kimi müstəbidlərin əlindən qoparmaq üçün əfradi-millətin göstərə biləcəyi böyük bir fədakarlığına vabəstə [bağlı] qalır. Onun üçün də şair böylələrinə müraciət edərək deyir:

*Bəni-növ'ün xilas et atəşin qeydi-əsarətdən,*

*Cahanda bir də firdövs eyləmək icad lazımsa.*

Hürriyyətin istehsalı üçün bir çox qanlar tökülür, canlar verilir, zalımlar tələf olur. Axır ki, hürriyyət məşəli ətrafa şölə saçır. Neçə ki, şair deyir:

*Xuni-ərbabi-həmiyyət qərq edər zalimləri,*

*Məş'əli-əfkari-əhraranə sönməz xun ilə!*

Hürriyyət alınar, millət asudə nəfəs almağa başlar ki, bu vaxtlar kənardan qaragüruhun təcavüzü, ənvayi-işkəncələri, müstəbid hökmdarların zülümlərindən artıq hətta Mart hadisati-əliməsi kimi fəqərələr [hadisələr] baş verir. Millət çaşır, hürriyətin də hüsuluna peşman olur. Bunu duymuş şair milləti cürətləndirmək üçün böylə yazır:

*Həqir olduysa millət şanına nöqsan gələr sanma,*

*Yerə düşməklə cövhər saqit olmaz qədrü qiymətdən.*

Bununla belə mart sitəmzədələrinin ahü-fəğanı şairin halətini pozur, böylə yazır ki:

*Musiqilər təranə-saz olsa,*

*Sinələr cayi-ehtizaz olsa,*

*Guşimə millətin ənini gəlir!*

Təcavüzkarların zərbələri ilə dağılmış "İsmailiyyə" kimi vətən xarabələrinin qarşısında şair məyus olmayır, vətən xarabələrini behiştə oxşadır, hübbi-vətəni böyləcə tövsif edir:

*Vətən xarabəsi məncə behişti-əladır,*

*Xarabələr gəzərəm mən çəmən, çəmən deyərək.*

*Xəlqi-aləm bittəbi hübbi-vətən məcburudur,*

*Min gülüstana dəyişməz bum bir viranəyi.*

Milləti vətənə alışdıran şair, zəmanənin icabatına [ehtiyaclarına] görə məhəbbətin dördüncü dərəcəsinə – ki, **"istiqlal"**dan ibarət olmuş ola – qəsdiiqamə bağlayıb [nəzərdə tutub, onu özünə qayə seçib], bunun gələcəkdə təhsilinə [əldə edilməsinə] ümid bağlayır və bunu böylə təsvir edir:





*Nə yari-can imişsən, ah ey ümmidi-istiqbal!*

*Cahanı sənsən azad eyləyən min yə'sü möhnətdən.*

Şair yalnız ümidə kifayələnməyərək, fəaliyyət və fədakarlıqla istiqlalın təhsilinə çalışır və tövsiyə edir ki, vətənin düşmənlər əlində qalmış hissələrini şühəda qanları bahasına alsınlar. Odur ki, deyir:

*Vücudun kim xəmiri-mayəsi xaki-vətəndəndir,*

*Nə qəm, rahi-vətəndə xak olarsa cövrü möhnətdən?*

*Əvət, igidlər, əvət, siz fədayi-nəfs ediniz!*

*Vətən yolunda fədayi-həyat edən ölməz!*

İştə, vətənin dilavər [ürəkli, cəsur] balaları toplanaraq minlərcə şəhidlər verir, vətəni düşməndən xilas edir. Axırda da istiqlali-tamma nail olur.

Bunlar hamısı məhəbbətin səmərəsidir ki, eşq və sevdadan başlayaraq, istiqlala qədər varmışdır. Bu məhəbbət "varsın çoxalsın da, heç azalmasın!"

*Fərhad Ağazadə*

## AZƏRBAYCAN İSTİQLALI

Bu gün istiqlalımızın səneyi-dövriyyəsidir [ildönümüdür]. Keçən sənə 28 Mayısda etdiyimiz istiqlal elanından bu gün bir sənə keçir. O münasibətlə qiymətli Azərbaycanımızın hər tərəfində müəlla taqi-zəfərlərin [uca zəfər tağlarının], möhtəşəm binaların bəzənməsi görüldüyü



Azərbaycan Məclisi-Məbusan binasının zahiri görülüşü

kimi, hər ağızdan deyil, minarələrdən də gülbangi-zəfərlər [zəfər nidaları] eşidilir. Bu şənlik, bu şadlıqlar bizi nə qədər sevindirir və o sevinclər içində nə qədər vəq'ələr dərxatir etdirir [hadisələr yada salır]. Bu sevinci daimi və daimiyyət əsasını təhkim və bu təhkimatı namusla bina etmək üçün azərbaycanlıların nəzəri-mütaliəsinə bir parça tarixi faciə ərz ediriz.

Təbii, bu tarixi faciə parçası keçirdiyimiz "əsarət dövrü" haqqında bir xatirə olaraq və hakimiyyətinə məhkum olduğumuz ünsürün icraatını təşkil edəcəkdir.

Bu gün ortada görülən səthi tarixçələrdə moskofların ölkəmizə təərrüzü [hücumu] Petronun zamanından görülür. Lakin öylə deyildir. Ondan daha çox əsrlər iləri rusların, haqqı və təbiətiylə Azərbaycan adını daşımağa istehqaq kəsb edən [haqq qazanan] paytaxtımız Bakıya gəmilər dolusuyla gəldikləri görülür. Yunan, rum, alan, avarlardan maəda [başqa] hicrətin 22-ci sənəsindən ikinci xəlifə həzrətlərinin zamani-xilafətindən 230 hicri xüləfayi-abbasiyyədən Vasiqbillahın əhdi-xilafətinədək [xəlifəliyi dövrünədək] Azərbaycanda ərəblərlə xəzərlərin bilafasilə qanlı müharibələri olmuşdur. 270-də Mötəmid Əlallah qüvvətli və müntəzəm əsgər sövqüylə xəzərləri isqat [dağıtdığı] və ricətə [qaçmağa, geri çəkilməyə] məcbur etdiyi kimi, fövqəladə islahat dəxi vücuda gətirmişdir. Və bir fərman sadir edərək [fərman verərək] paytaxtımız Bakıda olan neft və duz mədənlərinə müstəhfizlər müqərrər etmiş [mühafizəçilər təyin olunmasına qərar vermiş] və sənəlik məadin [mədənlərin] varidat və istehsalatını tərtib edilən qərar mövcibincə təqsim etmək [qərara əsasən paylaşdırmaq] üçün Məhəmməd bin Ammarı təhvildar təyin eyləmişdir.

290-da xəzərlər Dərbənd üzərinə şiddətli hücum və təərrüzlərdə bulunmuşlarsa, islam[ın] ittihad və hərbdəki məharətlərindən dolayı müvəffəqiyyət deyil, məğlub olaraq geri dönmüşlərdir. Ruslar bunların şaşqınlığından istifadə edib, etdikləri yəğma və qənimətin yarısını onlara vermək şərtiylə xəzərlərdən dəniz təriqiylə [yoluyla] bəri keçməyə müsaidə hasil etmişlər. Beş yüz gəmi ilə əlli min nəfər rus İdil nəhrindən Xəzər dənizinə keçmişlərdir. Fəqət fitri adətləri olaraq müsaidəsinə məzhər [nail] olduqları Xəzər xaqanının ehtiram gözləmədən, canavarcasına bütün sahillərdəki şəhərlərini, qəsəbələrini qətl və qarət eyləmişlər. Müdafiə üçün gəmiləri olmayan və iş işdən keçdikdən sonra səhvlərini anlayan xəzərlər quru təəssüfdən başqa bir çarə bulammamışlardır.

Xüləfayi-abbasiyədən Müqtədirbillah bir vəq'ədən ittila [xəbər] istehsal edib 296-da Əbülqasım Yusif bin Əbülsacı qüvvətli ordu ilə sövq etmiş, müşarileyh [adı çəkilən şəxs] dəxi Bakıya gəlib gəmilər tədarük etməyə başlamışdır. Ruslar artıq qətl və qarətdən əl çəkib Nargin cəzirəsinə [adasına] iltica etmişlər [sığınmışlar]. İslam ordusu gəmiləri hazır etdikdən sonra cəzirəyə ruslar üzərinə hücum etmişlərsə də, məğlub olaraq qayıtmışlardır. Bu səbəblə ruslar daha bir müddət orada qalmağa və ətrafı çalıb-çapmağa imkan bulmuşlar. Etdikləri fövqəladə qənimətin yarısını Xəzər xaqanına vermişlərdir.





O vaxtlar Bakıda Əli bin Heysəm hakim idi.

Məğlubiyyətə heç də davam edəmməyən islam əsgərləri bu xüsusda çox düşünüb həddən ziyadə hazırlıqlarda bulunmuşlar. Nəhayət, bir tərəfdən bunlar, digər tərəfdən xəzərlər arasındakı müsəlmanlar intiqam saiqəsiylə hücum edərək ruslara otuz min tələfat vermişlərdir. (1)

332-də yenə ruslar Kür və dəniz təriqiylə Aran paytaxtı Bərdəni zəbt etməyə hərəkət etmişlər. Ora hakimi beş min nəfərlə müqabilə etmişsə də, ruslar külliyyətli əfrada [əsgərə] malik olduqlarından məğlub olmuş və Bərdə rusların pənceyi-istilalarına keçmişdir. Ancaq yerli əhali üçün Bərdədən çıxmağa bir həftə vaxt qoymuşlar. Müəyyən müddət qurtardıqdan sonra yerdə qalanlarını tamamilə qətl və əsir edib biri iyirmi dirhəmə satmışlardır. Bu müharibədə rusların əlinə ərli-qadınlı 19 min əsir düşmüşdür.

Mərziban deyilməklə məşhur olan Azərbaycan valisi Məhəmməd bin Müsafir otuz min nəfərlə rusları dəf etməyə hərəkət etmişsə də, məğlub olmuşdur. Ruslar orada bir sənədən ziyadə qalmışlardır. Mərziban təkrarən müharibəyə başlamış, fəqət pək də müdəbbiranə [uzaqgörənliklə] başlamışdır. Yollarda pusquda əsgər qoymuş, kəndisi bir az qüvvə ilə qarşılarına yürümüş, rusların hücumu əsnasında qaçmağa üz çevirmişdir. Bu əsnada pusqudaki əsgərlər rusları arxadan təpələmiş, sərkərdələrini qətl, cəmiyyətlərini ağır tələfata düçar etmişlərdir. Mabaqiləri [qalanları] Bərdənin Şəhristan adlı qalasına sığınmışlarsa da, mühasirə təzyiqi altında daha davam edəmmədiklərindən, gecə olunca mümkün qədər şeylərini alıb gəmilər vasitəsilə qaçmışlardır. (2)

Nəhayət, rusların böylə quldurca olan təərrüzləri və qətl-qarətləri yekdigərini təvali edə gəlmiş [bir-birini izləmiş] və Petronun, Yekaterinanın, sonra Aleksandrın zamanında ikmal edilmişdir [tamamlanmışdır]. Onların cahangiranə [imperialistcəsinə] deyil, türk islam ünsürünü məhv etmək məqsədlərinin icrası yolunda infaz edilən dəhşətli şikəncələrin qanlı faciələri hənüz də təxfif və təhvin edilməmişdir [azaldılmamış, yüngülləşdirilməmişdir]. Öylə şikəncə, öylə faciələr ki, fəci Mart qırğını onların yanında sıfır məsabəsində qalar. Keçirdiyimiz "dövri-əsarət" acılığı dimağımızdan silinməmişdir. Milləti-məhkumə olmaq əziyyəti canımızdan çıxmamışdır.

Şimdi məzkur [deyilən] acılıqları, hakimiyyəti-milliyyə sahibi olmaq sifətiylə yaşamaq, yaşamaq da böylə böyük-böyük şənliklər etməklə ovudacağız. Unudulmasın ki, dünyada yaşamaq hakimiyyəti-milliyyə, hakimiyyəti-milliyyənin bəqası əsgər iledir. Haydi, coşqun həmiyyət, qaynar qeyrətlə çalışalım və yüksək səda ilə söyləyəlim:

Yaşasın Azərbaycan!
Var olsun hakimiyyəti-milliyyə!
Paydar olsun əsgərlərimiz!

*Əliabbas Müznib*

1) Məsudi.

2) İbn əl-Əsir.



Fətəli xan Xoyski
Birinci
Heyəti-Vükəla rəisi



Yusifbəyli Nəsib bəy
Azərbaycan Cümhuriyyəti
Heyəti-Vükəla rəisi

## BÖYÜK BİR GÜN!

Günlər vardır ki, böyük bir həqiqəti elan etmiş, günlər vardır ki, böyük peyğəmbərləri doğurmuş, günlər vardır ki, bütün insaniyyət üçün vacibül-iftixar olmuş. Yenə günlər vardır ki, kiçik bir milləti böyütmüş, böyük bir milləti oyandırmış, böyük vətənpərvərlərdən böyük millətlər yetişdirmiş və bütün tarixi-miləldə – Böyük bir gün! – böyük bir mövqe tutmuşdur.

"Allah bir gün dünyanı yaratdı" demişlər, kainatın sahibi-həqiqisini göstərmişlər. "Adəm bir gün topraqdan vücuda gəldi" deyə məhdi-bəşərin [insanlığın beşiyinin] əslini təyin etmişlər. "Nuh bir gün tufana tutuldu" deyərək təbiət ilə bəşər arasındaki mübarizənin tarixini bulmuşlar, İsa bir gün şagirdlərinə "Sənə sağdan bir toqad vurarlarsa, sol tərəfini çevir!" deməsiylə sülh aləminin qapısını açmaq istəmişlər. Həzrəti-Məhəmmədə bir gün "Möminlərdən rical [adamlar] vardır ki, Cənabi-haqlə əhd etdikləri şeyə sədaqət göstərirlər" məalında ayət nazil oldu, deyərək peyğəmbəri-zişanı [şanı uca peyğəmbəri] qəhhar [qüdrətli] bir mübarizi-haqq olaraq tanımışlar, Şərq səmimiyyəti-fikriyyəsinin əsasını bildirmişlər. Hasili, "bir gün" bütün tarixi-mədəniyyət və bəşərdə bir mövqe tutmuş, bir böyük gün əzəli bir təkərrüri-tarixi [tarixi təkrar] olaraq bütün millətləri ziyarət etmişdir.

Əvət, "bir gün" hər halda kainatın ümumi həyatı, bəşərin tərəqqi və təkamül meyarı olaraq bir çox hikmətləri, bir







General
Səməd bəy Mehmandarov
Hərbiyyə naziri

çox incə fəlsəfələri havidir [özündə ehtiva edir]. Öylə bir gün yoxdur ki, aləmitəbiətdə böyük hadisələr çıxmasın, öylə bir gün yoxdur ki, həyati-insaniyyət və miləldə [insanlığın və millətlərin həyatında] ya məsud və ya mənhus bir təzahür zühura gəlməsin. Bir gün Frans Ferdinand Bosna-Hersekdə öldürüldü, bir gün Avropa müharibəsi çıxdı. Bir gün Rusiya ixtilal etdi. Bir gün Lehistan [Polşa], Ukrayna, Litva, Finlandiya, Sibirya, Qafqaziya ayrıldı. Bir gün türklərin günü açıldı.

Bir gün də – Azərbaycan elani-istiqlal etdi!

Günlər başqa aləmlər üçün dəyişmiş, dün mənhus günlər keçirən bu gün məsud günlərə nail olmuşdur. Hər millətin böylə günləri vardır. Fəqət məncə həpsindən qiymətli olan günlər kiçik millətlərin məsərrət [sevinc] və məhzun [hüzün] günləridir. Çünki kiçik millətlərin hüzünləri də səmimidir, məsərrətləri də! Orada siz cahanşümul bir feyz [bərəkət], ələm-baha bir fövz [müvəffəqiyyət] görərsiniz.

İştə o feyz və fövzlərdən biri və şübhəsiz bizim üçün ən müstəsnası Azərbaycanın məsərrətli böyük bir günüdür – 28 Mayıs günü!

*Ə. Həmdi*

## GƏNC NƏSLƏ

Azərbaycan gənci! Bu gün sənin gənc cümhuriyyətin bir yaşını bitirir. Kim bilir, tarix ilahının tövfiqiylə [köməyilə] qaç, bəlkə yüzlər, minlərcə sənələr sən bugünkü gündə bayrağını götürüb səmimi bir sevinc, haqlı bir vüqar ilə istiqlal aldığın bu günü xatırlayacaqsan...

Gəl, yoldaş! Bu ilk bayram sonra gələcək məsud bayramlara bənzəməz, bu bayram sənə sevincdən ziyadə vəzifə gətirir. Gəl, bu ağır tarix imtahanlarını ver, qazandığın haqqa səzavar [layiq] olduğunu isbat et, baxalım bir vətəndaş adlanmağa layiqmisən? Bu gün dövlətlər arasında bir mövqe tuta bilmək, beynəlmiləl ailənin bir fərdi olmaq üçün bəşəriyyət səndən nə istəyir, bilirmisən? Səndən milliyyətini tanımaq, xüsusi bir mədəniyyət və tərəqqi uğrunda bir əzm, bir səbat istəyir. Tarixi bir rol oynamaq, cahan xəritəsində bir yer tutmaq istədiyin üçün həm Şərq, həm Qərb qarşısında məsulsan. Qərb o təcrübəli gözlərini sənə dikərək:

"Baxalım ölü, çürümüş Şərqin bu təcəddüd [yenilənmə] imtahanı nə səmərə

verəcək?" deyir. Şərq isə əsrlərdən bəri əsarətə məhkum olmuş qollarını yuxarı qaldırmış, bu gənc oğlunun nə yapacağını böyük ümid və həsrətlə bəkləyir. Sənin əzmin birincilərin şübhələrini zail [yox] etməli, ikincilərin ümidlərini qüvvətləndirməlidir. Aləmləri şaşdıracaq bir mətanətlə araya atılıb damarlarında donan qanı və əsəblərində uyuyan zəkanı pişgahi-bəşəriyyətə [insanlığın qarşısına] atmalısan. Görsünlər də bilsinlər ki, bu, torpağı altında təbii atəşi yanan ölkənin gənclərinin sinəsi altında da bir həqiqət, mədəniyyət atəşi yanır.

Azərbaycan gənci! İftixar et, qardaşım! Oğuz xan nəsli arasında birinci olaraq ən mədəni üsuli-idarəyə, cümhuriyyət üsuluna nail olan yenə sənsən.

Vaxtıyla Napoleon Misirdə ikən dönüklük xəyalında olan əsgərlərinin qarşısına çıxaraq ehramları göstərmiş və: "Əsgərlər! Bu ehramların üstündən qırx əsr sizə şəhadət edir!" demiş, bu ufacıq cümləylə yenidən bir ordunu ruhlandırıb səfərdə davam etdirmişdi. Əvət, qardaşım! Bu gündə Qafqaziya dağlarının almaz şahiqələri üstündən bütün millətlər, bütün cahani-mədəniyyət sənin hərəkatını seyr edir. Çalış ki, o tənqidçi nəzərlər önündə üzün ağ, alnın açıq olsun. Yarınkı səadət, yaxud fəlakət, hər ikisi sənin əlindədir. Sən istərsən vətənini bir məhdi-mədəniyyət [mədəniyyət beşiyi], bir kəbeyi-səadət edə bilərsən. İstərsən onu bayquşlar məskəni, dirilər mədfəni də [qəbiristanı da] yapa bilərsən. Deməli, gələcək nəsillərin də taleyinin yaradıcısı sənsən. Səy et ki, onlar da səni nifrət və həqarətlə deyil, təqdis [müqəddəs sayma, sitayiş] və hörmətlə yad etsinlər. Unutma ki, bu gün yarına bənzəməz. Bu günün hökmü başqa, yarının hökmü başqadır. Bu gün yalnız qılıncının zoruyla kəndisinə haqqi-həyat qazanan bəşəriyyət yarın tamamilə mənəviyyatına istinad edəcək deyirlər. Onun üçün şimdilik cümhuriyyətinin müdafiəsi üçün köksünü onun hüduduna sipər etməlisənsə, yarın da yaşamaq haqqı qazanmaq üçün ruhunu yüksəltməli, əqlini qüvvətləndirməlisən.

Bax, böyük türk şairi nə deyir:

*...Ey yarının*
*İnqilab ordusunda çarpışacaq*
*Qəhrəman! Öyrən iştə: Qüvvət – haqq.*
*...*
*Bəklərəm bir zəfər əsasən mən*
*Qılıcından ziyadə qəlbindən. (T. F.)*

Azərbaycan gənci! Gəl, yoldaş! Bu məhsullu əkinlər, sərin sulu yaylalar, həşəmətli ormanlar, qarlı dağlar, meyvəli bağlar, bağçalar, qara altun verən zəngin mədənlər, həpsi sənindir, sənin vətənindir. Min illərcə bəşəriyyətin nisfinin [yarısının] kəbəsi, beytülmüqəddəsi [müqəddəs evi] sayılan Bakı atəşgədələrindən, hənüz keçirdiyi tarixi vəlvələli günləri unutmamış Gəncə həvalisindən, Qarabağın (ah, gözəl ölkə), o yaşıl bağlı Qarabağın musiqi, nəğmə yurdu olan köylərindən, Zəngəzurun qartal yuvalarıyla dolu qayalarından, Hülakü bəyin məqbərini [qəbrini] ağuşuna çəkmiş Cəbrayıl tərəf, Araz yaxasından, şairlər, ədiblər vətəni olan Şirvandan... bunların həpsindən ibarət bir məmləkət var ki, orası sənin vətənindir... Hər sübh günəşin tülusunu [doğuşunu] tarlasında çocuq qədər şən və səmimi qarşılayan zəhmətkeş cütçü, qarşısına qatdığı qoyun sürülərini kəndi lisanınca oxşaya-oxşaya arandan yaylağa, yaylaqdan arana köçürən, əlindəki zopaya təkyə edərək [söykənərək] dağların qarlı qüllələrinə, ormanların dəhşətli qə'rinə [dərinliyinə] baxaraq köksündən mənidar, sadə və səmimi bayatılar fırladan çoban, mədənlərdə ömrünü çürüdərək neft, yağ içərisində çalışan qeyrətli fəhlə, həpsi, həpsi bunlar eyni vətənin həyatı uğrunda çalışan insanlardır.

Gəl, vətəndaş! Bu gün sənin birinci intibahının timsalı olan "İsmailiyyə"nin xarabası qarşısına çıxmalı, əlini qəlbinin üstünə qoyaraq, gözlərini Parlaman binası üzərində rüzgarlarla qəhrəmancasına çarpışan bayrağına dikməli, bir daha onun enməyəcəyinə əhd etməlisən və and içməlisən ki, bu gün qazandığın istiqlala təcavüz əli uzadanlar ancaq sənin cəsədinin üstündən keçə bilərlər.

*Əli Yusif*

## YANARDAĞ...

*Ki yeki həsto hiç nist cözuv*
*Vəhdəhu la ilahə illahu*

*Hatif*

O, ömründə bir çox patıltılar, gurultular keçirərək, qəvi [möhkəm] heykəl təni, daima nərəkəşan [nərə çəkən] olduğu bir surətdə, içərisində olan odlu daşları havaya sovurmuş və bir vaxt ətrafını qara çamurlar ilə əhatə edərək, yaşıl sünbülləri, o mayeyi-həyati-bəşəriyyəni kəndi qara qəlbindən çıxarmış olduğu hisli-paslı və zəhralud [zəhərli] nəfəsiylə müləvvəs etmişdi [çirkləndirmişdi]. Bir zaman dəxi böyük bir nərə ilə ətrafı məhabətli [qorxulu] və olduqca dəhşətli bir gurultuya qərq edib, içərisindən havaya qalxan odlu, hərarətli



İlk dəfə Azərbaycan ordusu qitəatının paytaxtımıza vürudu

şölələr və şərarələriylə [qığılcımlarıyla] yaxındakıları işıqlandırır, ətrafını isə qara torpaqlara basdıraraq, baharın ilk nəsimi ilə açılmış çəmənləri, o məhcub [utancaq] qönçələri matəm libasına geyindirirdi. Uzaqdakılar həmişə onun zəhərli şəfəqlərindən və şöləvər olan [şölə saçan] işıqlarından məhrum olmaqla bərabər, onu bir fəcri-kazib [yalançı sübh] hiss edərək bəhrəvər olmaq [faydalanmaq] istəməzlərdi.

Zatən kəndisinin cibilliyyətini [xilqətini, xasiyyətini] və təbiətini bildiklərindən, əsla etina etməz və heybətindən uzaqda olduqlarını dərklə, cüzi də olsa xof etməyib, xətrəyə [qorxuya] düşməzlərdi. Yaxındakılar isə get-gedə işıqların içərisindən çıxan bədheybət sövtləri [səsləri] eşidərək kəndisini təbii bir həyəcan içində hiss etməklə qəlbini dağdar edir və dillərində böyük bir kəlmeyivirdlə deyirlərdi ki: "Bu gün bu bəla bir çox xanimanları bərbad edib külünü göyə sovurduysa da, lakin o ədalət və haqq tərəfdarı olan Pərvərdigar bizi öz mərhəmətindən məhrum etməz və Allah bir yandan bağlarsa, o biri yandan açar."

* * *

Bir çox zamanlar keçdi. O dağ kəndi hərarətini, qızğın hissiyatını və cəhənnəmnümun [cəhənnəmi andıran] nərələrini qeyb etdi, hərarətindən qaldı. Artıq zəif bir cəsəd kimi düşkün bir halda idi. Söndü, məhv oldu. Onun heybəti, o qəvi heykəl bədəni, bir "dağ" kimi yıxılmışdı. Ətrafdakılar ondan hələ qorxurdular. Yaxınına gəlməkdən həzər edirsə də, bir daha onun hərəkət etməyəcəyinə inanaraq, cəsarət və qeyrətə gəlirlərdi.

* * *

Düşmən neçə gün əvvəl Yanardağda olan cüzi bir başıpozuq dəstəsini qovub onu işğal etmiş və orasını böyük xəndəklərlə mühat edərək möhkəm bir hala salmışdı. Yanardağın düşmən tərəfindən işğalı dost qoşunları komandanı … bəyi düşündürürdü. Zira onun hərb nöqteyinəzərindən böyük əhəmiyyəti var idi.

Yayın isti və şiddətli dərəcə hərarətli bir günündə cəbhəyə yeni varid olmuş [gəlib çatmış] komandan:

– Bu gün, nasıl olursa-olsun, şu təpələr və xüsusən Yanardağ işğal edilməlidirlər. Bu təpə təsərrüfümüzdə [idarəmiz altında] olmadıqca, kəndimizi daima xətrə [təhlükə] qarşısında hiss edəcəyiz, – dedi.

Həman iki saatdan sonra həman təpələrə hücum əmri sadir oldu [əmri verildi]. Ətrafda insanın bütün mövcudiyyətini belə sarsıdan bir müharibə başlandı. Topların gurultusu, mitralyozların taqqıltısı, mauzerin, vintovkalardan bilafasilə [fasiləsiz] açılan güllələrin şarıltısı get-gedə cəbhəni böyük bir meydani-hərbə təbdil etdi [çevirdi]. Qumbaraların havaya sovurduğu toz-torpaqdan meydani-hərb görünməyib, gurultular, həman neçə il bundan əqdəm [qabaq], dağın təbii gurultularını andırırdı. Orada insanlar cəhənnəm misalı atəş və Yanardağın odlu qurşuni fəvvarəsi içərisində kəndisini mələkülmövt çəngalında [ölüm mələyinin caynağında] hiss edirlərdi. Ölüm saçan makinalardan buraxılan qurşunlar





dağın içərisindən çıxmış olan yalançı altuna, qurşuna qarışırdı. Xəndək müharibəsi bir qədər davam etdikdə düşmən kəndi mövqeyini möhkəmləşdirib və şiddətli inad göstərdiyindən, süvari dəstə kəndi komandası altında atlarına mahmız göstərərək üryan qılınclar əllərində olduğu halda dağa, düşmən səngərlərinə doğru hücumavər oldular. Və komandan həzrətləri müxtəsər bir nitq ilə süvarilərə müraciətən:

– Oğlanlarım, Allahu əkbər! – dedi.

Süvarilər bu böyük kəlməni komandanın ağzından alaraq müttəfiqən [birgə] onu təkrar ilə ucadan "Allahu əkbər" nərəsiylə kainatı hərəkətə gətirdilər. Cüzi bir çarpışmadan sonra süvarilərdən bir çoxu dağın kəlləsində qərar tutub qırmızı bayrağı oraya nəsb etdilər [sancdılar]. Və bununla isbat etdilər:

*Ki yeki həsto hiç nist cözuv*
*Vəhdəhu la ilahə illahu*

*Piri*

**TƏŞKİLATIN QADINLARA TƏSİRİ**

Məmləkətimizdə dəxi qadınlıq oyanmağa başladı. Nə böyük xoşbəxtlik!

Bu gün Azərbaycanda olan müsəlman türk qadınları həqqi-həyatını, həqqi-ictimaisini düşünür. Nə məsudiyyət!

Qadınlığın oyanması, ictimaiyyatı, siyasiyyatı başqa rəngi-mədəniyyətə təhvil edəcəkdir [çevirəcəkdir]. İnsaniyyəti yüksəldəcək, adəmiyyəti məsud edəcək ancaq qadınlıqdır.

Qadın, erkək bir-birindən ayrı həyat keçirəmmədiyi kimi, bərabər yaşamağa təb'ən [təbiət etibarıyla] məcburdur. Erkəyin qadından ayrı yaşaması, ayrı hüquq mühafizə etməsi nə əqlə sığar, nə məntiqə. Erkək-qadın bir-birinin tamamı, yardımçısıdır. Əgər böylə olmazsa, insaniyyət kamalını, adəmiyyət mövqeyini bulmamış olar.

Nə qədər erkəklər hüquq dərəcəsində qadınlardan ülvi olursa-olsunlar, əgər qadınlar hər hüquqdan məhrum qalarlarsa, o millət heç bir vaxt yüksələmməz və bizim şimdiki halımız kimi qalar. Əgər erkəklər kimi qadınların da hüquqları hüquqi-ümumiyyə arasında qəbul edilmiş olduğunu görərsək, o dəqiqədən etibarən bəşəriyyətin məsud olacağına inana biləriz.

Bu gün bizi yaşadacaq, əvvəlkindən daha iyi yaşadacaq ancaq Azərbaycan və Azərbaycan Hökuməti olacaqdır. Gələcək ümidimiz Azərbaycanın fəal müdafilərinədir [müdafiəçilərinədir]. Əgər onlar əzm və niyyətlərində müstəqim [düzgün] olarsalar, biz də, millətimiz, insaniyyətimiz, varlığımızda öyləcə müstəqim və mətin olarız. Əgər müdafilərimizi, qəhrəmanlarımızı yetişdirən və şimdi də kamali-iftixarla əsgərliyə göndərən analarımız oğullarını baş qaçırtmadan, göz yaşı tökmədən, sevə-sevə, dua edə-edə əsgərliyə göndərsələr, öylə övladlar da layiqli millətin qəhrəmanı, hökumətin müdafii [müdafiəçisi] olar.

Burada bir əhvalat xatirimə gəldi.

Keçən gün məmuriyyətimdən çıxıb da evimə tərəf dalğın-dalğın gəlirdim. Yol əsnasında bir dəstə müsəlman xanımlarıyla birləşdik. Əvvəlcə mən bunlara əhəmiyyət verməsimsə də, onların pək

ciddi olan söhbətləri məni dalğınlığımdan ayıltdı. Daha eyi qulaq verməyə başladım.

Hal və tövründən təxminən on beş yaşında olan birisi deyirdi:

– Nənə, öylə niyə deyirsən! Hər vaxt sən sözə uyur və fikrindən tez dönürsən. Keçən gün qardaşıma sən kəndin deməyirmiydin ki, get bala, get, Allah səni mühafizə etsin.

Bir qeyrisi:

– Nənəm o vaxt razı idi, amma Gövhər xalaqızıgili bizə gəlib əsgərlikdən danışandan bəri nənəmin də rəyi döndü. Daha dadaşımı göndərmək istəməyir.

Bir qeyrisi:

– İnsan da öylə tez fikrindən dönərmi? Bu bir mal bazarlığı deyil ki, bunu istəməm, bunu istərəm deyəsən. Bu bir vəzifədir. Allah borcu kimi bir şeydir.

Bir qaçı birdən:

– Əstağfirullah elə! Əstağfirullah elə! Kafir oldun. Əsgərliyə getmək Allah borcu kimi niyə olsun? İstərəm göndərmərəm, istərəm göndərərəm. Həm də öylə biqeyrət ana olarmı ki, oğlunu öz rəyi ilə əsgərliyə göndərsin? Bu da sözmüdür, oğul bəslə, oğul yetişdir də sonra de ki: Ala, gəl, oğlumu qoşuna apar, güllə qabağına apar. Boy, Allah amandır, böylə şeyi kim görmüş, kim eşitmişdir?.. Bununla böylə deyir ki, Allah borcu kimi şeydir. Mən böylə şeyə razı olmam da, sən nə vaxt ki, boyun bərabəri övlad yetişdirərsən, onu göndər. İndi sənin nəsihətin mənə lazım deyil, balam.

– Ay nənə! Axır sən bica [boş] söz danışırsan. Sənin ərin bələdiyyə idarəsinin üzvü olsun, bir oğlun böyük məmur olsun, bir oğlun hər kəsdən artıq var qüvvəsilə millətin iləri getməsiyçün çalışsın, özün də bir külfət içində qanacaqlı hesab olunasan da, böylə danışasan. Onda o biri avam qadınlardan nə gözləməliyiz? Onda gərək onların heç biri övladlarını əsgərliyə göndərməsinlər. Sən övladını sevib istəyən kimi, onlar da övladlarını sevib istəyirlər. Düşün... Övladlarını əsgərliyə göndərən anaların heç biri övladını küçədə tapmamışdır. Onlar da övladlarını min məşəqqətlə meydana gətirmişlərdir. Nə üçün onlar millətlərinin irəli getməsinə, hökumətlərinin möhkəmləşməsinə övladlarını...

Söz buraya gəldikdə, məəttəəssüf [təəssüf ki], mən də evimə çatmış bulundum və xanımların fikrinin nəticələrini eşidəmmədim.

Çox kiçik vaxtlarımızda rəhmətlik nənəm bizi başına toplayıb pək sevdiyi və heç söyləməkdən doymadığı, keçirmiş olduğu müharibə təəssüratından bizə danışardı. Nənəm öylə eşq və həvəslə söylərdi ki, çocuqlardan başqa böyüklər də oturub nənəmin hekayəsini dinlərlərdi. İştə, nənəmin söylədiklərindən bir annənin şəhid oğluna söylədiyi sözləri xatirimə gəldi.

Annəsi oğlunun şəhid olduğunu eşitdikdə demiş:

– Bütün mövcudiyyətimi, qadınlığımı bildirən, həyatımın boşluqlarını dolduran, bütün ələmlərimi, iztirablarımı zövqlərə, sürurlara təhvil eyləyən [sevinclərə çevirən] səndin, yavrum, şəhid balam. Mövcudiyyətin mənim üçün bir cahan, bir səltənət idi. Həyatımda bütün arzularım, yüksək əməllərim [niyyətlərim] həp səndin, şəhid oğlum. Bax, validən şimdi sənsiz, qərib qaldı. Qəlbimə unudulmaz yaralar açdın, gözəl yavrum. Sən mənim mədari-şanım, şöleyi-şücaətim,





fanusi-nurum idin. Şimdi səmalara süud etdin [ucaldın], mələklərə qovuşdun, mənim sevgili vəzifəşünas oğlum, vətən aşiqi mərd yavrum. Ah, biçarə annəni kimsəsiz, nəşəsiz buraxdın, qəlbimə oxlar sancdın, hicranlar cızdın, heç silinməz izlər buraxdın, mənim şəhid yavrum. Bir daha səni görməyəcəyəm, sənin yerinə, uğrunda canını fəda etdiyin vətənini görəcəyəm, sevəcəym, – demişdi.

Biz, hekayə təriqiylə [yoluyla] eşitdiyimiz bu mübarək arzulara, bu müqəddəs işlərə, həmd olsun ki, yetişdik. Hökumətimizin təşkilatını, əsgərlərimizin nizam-intizamını görürüz. Artıq bundan böyük hanki arzu ola bilər?

Nə məsudiyyət!

Nə böyük xoşbəxtlik!

İştə, bu gün Azərbaycan istiqlalının bir sənəsi oldu. Erkəklərimiz kəndi hissələrinə düşən vəzifələrini fədakaranə bir surətdə ifa etməkdədirlər. Saat kimi düzgün, vaxtı-vaxtında, həm də eyni sürətlə kəndi öhdələrinə mühəvvəl olunan [tapşırılan] işlərə çalışırlar. Həmd olsun, səy və qeyrətləri həbaya [boşa] getmədi. İştə, bu gün səylərinin səmərəsi meydanda.

Alqışlanmağa layiq olan bu çalışqan milləti alqışlar və yorulmamaqsızın işlərini əncama yetirməklərini arzu edər və müvəffəqiyyətlər dilərəm. Fəqət...

Fəqət Azərbaycanın möhtərəmə xanım əfəndilərinə gəlincə, baxalım onlar təşkilatımızı nə ilə qarşıladılar. Erkəklərimizə təsəlli olacaq nə kimi işlərdə bulundular? Yoxsa hər bir əmrdə [işdə] erkəklərimiz cavabdehəndə [cavabdeh] olduğu kimi, qadınların vəzifəsi dəmi erkəklərimizin əmrü nəhyinə mühəvvəl olundu [görməli və saqınmalı olduqları işlərə qarışdı]?

Yox... Yox... Bunu xəyala gətirəmməyirlər. Əgər öylə olarsa, zavallı erkəklərimiz böylə böyük bir vəzifəni, təhəmmül olunmaz [dözülməz] bir işi öhdələrinə alıb da iki vəzifə ilə müvəzzəf olsalar [vəzifə daşısalar], mühitimizdə yaşayan iki qollu-iki qanadlı işləyən millətlərə vaxtında ulaşa bilərmi? Onsuz da biz onlardan milyon məsafələrdə geri qalmışız və qaldığımızı da gözlərimizlə görə-görə yenə də guya ki, o millətin yarısını təşkil edənlər biz qadınlar deyiliz kimi hər bir işimizə yabançı nəzəriylə baxırız.

Mazidə [keçmişdə] olduğu kimi, halhazırda da ancaq ailə daxilindəki işlərimizdə kübaranə dolanıb da ictimai-siyasi işlərə qarışmağı kəndimizə zəhmət bilib rahatlığımızı pozmaq istəmiriz.

İyirminci əsrdə keşməkeşli mühitdə pərvəriş edən [böyüyən, bəslənən] qadınlarımız zamanəmizin ələlxüsus hal-hazır vüquatlarının [hadisələrinin] həpsindən xəbərdardırlar. Həpsinin erkəkləri Azərbaycan Hökumətinin birər möhtərəm üzvləridir. Necə ola bilər ki, möhtərəm üzvlərin möhtərəm ailələri böylə səssiz, sümmbükəm [lal-kar] yaşasınlar da, ictimaiyyat və siyasiyyatdaki hissələrini erkəklərimizin öhdəsinə tapşırsınlar?

Şimdiyə qədər bütün günahlarımızı, qüsurlarımızı zalım istibdadın boynuna yükləməklə kəndimizi bir növ kəndi aramızda təmizləyə bilirdik, fəqət yenə də qadınların günahkarlıqları, töhmətlərini qulaqlarımızla eşidirdik. Hürriyyət verildi, istibdad zənciri qırıldı, Azərbaycan Hökuməti təşkil olundu. Şimdi daha deyəcək bir sözümüz qaldımı? Bəli, qaldı!.. O da şimdiki halda qadınlar arasında ən lazımlı, ən tərəqqi etmiş söhbətlər, yay zamanını hanki seyfiyyələrdə

[yaylaqlarda] keçirmək, hanki yerdə daha səfalı ömür sürmək və nərədə təbiətin daha gözəlliyini görmək, sərinliklərində vaxt keçirməkdə söhbətləridir.

Əlbəttə, o da lazım, fəqət bunlar 2-3-cü dərəcədə olanlardır. Şimdilik çalışqan millətlərin qadınlarını lütfən bir nəzərdən keçirəlim, tarixlərini oxuyalım. Nələr yapmışlar, nələr yapırlar və daha nələr yapacaqlardır. Heç olmazsa kəndimizi bir az da olsa onlara bənzədəlim. Onların eyi əməllərini qəbul, fəna əməllərini atmaqla milli adat, milli ənənat, milli əsas daxilində kəndi qeydimizə qalalım.

Bugünkü halda avam qadınlarımızın günahı, bilib də soyuqqanlılıqla keçirən qanacaqlı xanımlarımızın boynunda qalır.

Artıq hümmət, qeyrət meydanıdır. Çalışan qazanar, biz də çalışalım da hər hüququmuza nail olalım.

*Şəfiqə Əfəndizadə*

## MİLLİ BAYRAM MÜNASİBƏTİLƏ

Oh! Şu köhnə dünyada nələr olmadı? Həyati-bəşərin uzaq səhifələri deyil, şu yaxın zamanlarda axıb gələn bəşəriyyət səhnəsindəki vəxamətli [ağır, təhlükəli] rolları təxəyyül etdikdə, nəzərimdə təcəssüm etdi. Dedim a: uzaqları deyil, yaxın mazini [keçmişi], Nikolay dövrünü seyr edirəm. Nəzərimi şu səhneyi-aləmin bir yanında istər-istəməz siyasiyyat səhnəsinə çəkilən biz Azəri türklərinin halına baxıram.

Ah, nələr vaqe olur. Hökumət məmurlarının politikası sayəsində cavanlarımız bir-birinin qatili olur. İştə, nahaq qanlar, qəlbi dağdar analar ya bacılar, gözü yaşlı məsum çocuqlar. Həbslər, mənfalar [sürgünlər], ziyalılarımız istibdad yumruğu sayəsində ağızları tıxadılmış, millətimizin avam qismi başına nə gəldiyindən bixəbər, əcnəbipərəstlər iltifatlara nail, vətənpərəstlərə həbslər, mənfalar təqdim olunur.



Bakıda qədim Xan sarayı

Məktəblərimizin ancaq adı "milli", fəqət ruhən başqalaşmış politikası çərxiylə fırlanır. İslam qanlı, türk ruhlu bir millət də həməsrlərini görüb də tərəqqi və təala etmək [ucalmaq] haqqına, yoluna düşməyi qəsd və iradə etməzmi?

İştə şu fikrin, şu niyyətin doğmasına bir gün olsa da imkan verməmək qəsdiiblisanəsiylə özümüz diplomatlar vasitəsiylə biçarə millətimizin milli fəaliyyətini, ictimai idarə istedadını, fitri qüvvət və təvanını [gücünü] axırı heçistan məcralara çevirməklə başımıza fəlakətlər yağdı, pək çox proqramlarımız əqim [yarımçıq] qaldı.

İştə, bu qədər fəlakətləri, müsibətləri yedik, türk ruhu bunlara səbr eylədi. Ümum islam aləminə baxdıqda, biri digərindən müdhiş, ürək yandırıcı mənzərələr, əmri-vaqelər [faktlar]. İştə, şu halları görən, sızıldayan islam övladı birdən-birə bilaixtiyar [ixtiyarsız, qeyri-iradi]: "İlahi, bu gedişlə islam dünyasında nələr daha vüqu bulacaq? İslamı şu bəlalardan kim qurtaracaq? Dəstə-dəstə islamiyyanı [müsəlmanları] ayırıb nərələrə aparırlar?"

İştə, hər bir islam övladının ruhunu böylə suallar qarışdırır. Böylə acı, uzun sənələr milli ənənatımızı [ənənələrimizi], bütün ruhumuzu əzib keçdilər. Hürriyyət dövrü yetişdi. Cümlə millətlər milli işlərini yoluna qoymağa, məsud olmağa qiyam etdilər [təşəbbüs etdilər, ayağa qalxdılar]. Bir az keçmədən bu dövrün nəticəsi – başımızın üstündə qara buludlar peyda oldu. Ox! Bu dövrdə heçaheç bir bəhanə sərdiylə [meydana əsassız bir bəhanə atmaqla] yenə biz al qanlara boyandıq. Hansı vəhşətlər qaldı ki, islam, xüsusən türklüyə düşmən bir ruhda tərbiyə edilmiş daş ürəkli daşnaqlar icra etmədilər?

Əvət, biz, böylə xunalud [qana bulanmış] həyat səhifələrini görüb dadan millətimiz, təhrir [yazılması] və təsviri bir dürlü qabil olmayan bir neçə haqsızlığı, sitəmi görən biz Azəri türkləri ancaq Allahın tövfiqi sayəsində və millətimizin həmiyyəti və zuri-bazusuyla [qolunun gücüylə] bu gün naili-məram olub istiqlaliyyəti-vətən, o sevgili məhbubəni dərağuş ediriz [bağrımıza basırıq].

Bu öylə bir nemətdir ki, millətlər böylə neməti-üzmaya [böyük nemətə] nail olmaq üçün nələr fəda etməmişlər! Ah, biz də bu yolda pək çox qanlar qurban eylədik. Deyil Mart faciəsi, biz Azəri türkləri Nikolay dövründə həm Petroqrad ministrlərinin və bir çox rus bayquşlarının ulamasıyla, daha doğrusu istiqlaliyyət fikri hətta ürəklərimizdə xütur etməmək [xatirə gəlməmək] naminə pünhan qan nəhrləri Azərbaycan torpağını boyamışdı. Nikolay dövründə biz milli səadət naminə nə yapsaydıq, axırda murad etmədiyimiz heçaheç nəticələr qarşısındaydıq.

İştə, istiqlaliyyətsiz tərəqqi və təali etmək olmaz! Tərəqqi etmənin vaxtı iştə bu gündür. Səadət qapılarının cümləsi üzümüzə açıqdır. Bu gün ixtiraatlarıyla məşhur millətlər həp istiqlaliyyət sayəsində böyük alimlər yetişdirib ağılları heyrətə salan makinalar icad etmişlər. Yaponlar həp istiqlaliyyət sayəsində

bugünkü dərəceyi-tərəqqi və təkamülə çatdılar. Halbuki türk övladı bunlardan və bir çox millətlərdən daha müstəid [istedadlı] və daha qabildir. Bir gün Fərabilər, Ömər Xəyyamlar, Sədilər, İbn Rüşdlər və bu zümrə hükəma və əazim [filosoflar, alimlər və böyük adamlar] yetişdirən islam aləmi istibdad səbəbinə öylə böyük ruhların nəşvü-nümasına [inkişaf etməsinə, böyüyüb yetişməsinə] müsaid deyildi. Minlərcə şükür, bu gün istiqlaliyyət aləmi ələlümum islam, ələlxüsus türk övladı və biz Azərbaycan türklərinin xilqətində mərkuz olunan [yaradılışında, təbiətində mövcud olan] mövhibeyi-ilahi [Allahın ehsanı, bəxşişi] olan o ali xislətlər, o mənəvi qüdrət və təvan [güc, qüvvət], o istedadi-xariqüladə kamalıyla nəşvü-nüma bulub vətənə ən böyük insanlar yetişdirib, dünyada səadət nə olduğunu biləcəyiz!

Ey sabiq dövrün məzlumları, məğdurları! İştə, ey islam bağçasının vaxtsız solan al gülləri, Mart məzlumları!

Məzarlarınızdan qalxınız. O yaralı bədən, o qanlı gözlərinizlə göylərdə təməvvüc edən [dalğalanan], istiqlaliyyətimizi elan edər şu sevimli bayrağa nəzər ediniz!

Nəzər ediniz də, istiqlaliyyətimizin paydar [əbədi] olması üçün Cənabi-haqq dərgahına dualar ediniz.

Ey sevgili məhbubə, sən bizim dərdimizin dərmanı, ruhumuzun qidasısan.

Yaşa! Minlərcə yaşa!
Yaşasın azad
Azərbaycan!

*Ağababa Ağababazadə*

## MİLLİ BAYRAMIMIZ MÜNASİBƏTİLƏ

Təbiidir ki, hər bir şəxs yaxşı və bəxtiyar gün keçirtdiyi kimi, pis və fəna gün dəxi keçirtmişdir. İştə, məzkur [deyilən] şəxs ən gözəl və yaxşı keçirtdiyi günündə şu pis gününü yad edərək, yaxşı və bəxtiyar gününü daha ziyadə yüksək və möhtərəm tutaraq, o gündə şad və xürrəm olar. Biləks [əksinə], xoş günündə şadlandığı kimi, pis günündə dəxi şad gününü yad edib o günü arzu edərək, daha ziyadə qəmgin olar.

Binaileyh [ona görə], biz dəxi keçən sənə mayıs ayının 28-də bütün Qafqaziya cümhuriyyətlərilə bərabər elani-istiqlal edən Azərbaycan Cümhuriyyətinin səneyi-dövriyyəsi münasibətilə bu günü ən şərafətli və möhtərəm günlərdənədd [hesab] edirik. Həpimiz şu günü milli bir bayram ediriz.

Əvət, bu gün cavan cümhuriyyətimiz qarşısında durub keçən zəlalətli günlərimizi, ələlxüsus heç unudulmayan Mart hadiseyi-əliməsini xatırlayaraq, bu günün nə dərəcə əziz və möhtərəm olduğunu müşahidə edərək, kəndimizi qayət dərəcə şad və xürrəm görürüz. İştə, bu gün hər kəsin üzündə milli bir ruh və milli bir səadət parlayır. Sanki bunların qəlbinə bu gün yeni bir ruh daxil olaraq onları bu gün hürr və azad yaşamağa dəvət edir. Nəhayət, bu gün hər kəs ürəyindəki mübarək arzusunun nəticə verməsini görüb və kəndisini yeni bir əfkar və həyat içində müşahidə edərək qayət bəşşaş [şad] çöhrəsilə gözəl xalılarla və al bayraqlarla təzyin edilmiş [bəzədilmiş] soqaqlara və evlərə diqqətlə tamaşa edərək, sanki bu gün cahana yeni qədəm qoymuşdur deyə kəndisini nəhayət dərəcə məsrur [sevincli] və bəxtiyar ədd edir.

İştə, bu gün Azərbaycanın paytaxtı al bayraqlarla təzyin edilərək çıraqban olunmuşdur. Nəhayət, o müqəddəs Məclisi-Məbusanımız üzərində təməvvüc edən [dalğalanan] al bayraq və bayram münasibətilə böyük xətlərlə orada yazılan "Yaşasın istiqlal" kəlməsi insanın nəzər-diqqətini kəndisinə cəlb edərək bizi ittihad, ittifaqa dəvət edir.

Əcəba türk və islam aləmində bu hansı gündür ki, məmləkətimiz bu tövr gözəl şeylərlə təzyin olunmuşdur? Bu gün həman gündür ki, türk arxadaşlarımızın mərhəmətilə bütün Qafqaziya türk və islam aləmi əcnəbilər zülüm çəngalı [caynağı] altından xilas olaraq hürr və azad yaşamağa başlamışlar. Binaileyh bu gün bütün türk aləmində milli və tarixi bir bayram olduğuna binaən [olduğuna görə], Azərbaycanın tarix səhifələrində yazılaraq, ümum Qafqaziya əhalisi bu günü əziz və möhtərəm tutub, parlaq bir surətdə yola verməlidirlər. Zira əcnəbilər istibdad zənciri altında yaşamağımızı və Rusiya inqilabi-kəbirindən [böyük Rusiya inqilabından] sonra təsadüf etdiyimiz zülüm və zəlalətlərə qarşı şimdi kəndi cümhuriyyətimiz sayəsində hürr və azad yaşamağımızı müşahidə edərək nəhayət bu günün hər sənə yenə təkrar davam etməsinə binaən istiqlalımızdan möhkəm bir surətdə yapışaraq və onun daima paydar olmasını Haqq-taala həzrətlərindən istida və istirham [xahiş və arzu] edəriz.

*F. Əlif. Seyidəlili*

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

*(25 mayıs iclası)*

**Sədr:** Həsən bəy Ağayev.
**Katib:** Mehdi bəy Hacınski, sonra Əhməd Cövdət.

İclas saat 11:50 dəqiqədə açılır.

Məsaili-yövmiyyə [gündəlik məsələlər]:

1 – Əxzi-əsgər [hərbi çağırış] idarələri təşkili haq-qında layiheyi-qanuniyyə;

2 – Gəncə Bələdiyyə İdarəsinə bir milyon manat verilməsi haqqında layiheyi-qanuniyyə;

3 – Hökumətin 20 milyonluq fondunun 40 milyonadək artırılması haqqındakı layiheyi-qanuniyyə;

4 – Bakı Bələdiyyə İdarəsinə beş faizlə on milyon manat borc verilməsi haqqındakı layiheyi-qanuniyyə;

5 – Məclisi-Müəssisan seçkiləri layiheyi-qanuniyyəsi;

6 – Ünas edadiləri [qız məktəbləri] nizamlarının təğyir [dəyişdirilməsi] və təkmili haqqında layiheyi-qanuniyyəsi;

7 – Neft aksizi idarəsinin ştatı layiheyi-qanuniyyəsi;

8 – Daxil olmuş kağızlar, o cümlədən:

a) Səhhəti-Ümumiyyə Nəzarətinə 7 milyon 83 min 500 manat buraxılması haqqındakı layiheyi-qanuniyyə;

b) Xüsusi Təhqiqat və Təftişat Komisyonu təsisi layiheyi-qanuniyyəsi;

c) Maliyyə Nəzarəti nəzdində Gömrük şöbəsi təşkili haqqında layiheyi-qanuniyyə;

ç) Əsgərlikdən azad olan şəxslərdən bədəli-əsgəriyyə alınmasının ləğvi haqqında layiheyi-qanuniyyə;

d) Yer və tövcü vergisinin artırılması ilə bərabər torpaq gəlir vergisi təyini layihəsi;

e) Hökumət indində [nəzdində] süvari məiyyət [müşayiət] bölüyü təşkili haqqında layiheyi-qanuniyyə;

f) Məbus Tsaxakayanın ərzi-halı, "Müsavat" firqəsinin sualı və sair bir neçə təklif.

Ruznameyi-müzakirat [müzakirə gündəliyi] bir qədər təbdil ilə [dəyişdirilməklə] qəbul olunur.

**Əxzi-əsgər idarələri**

Birinci növbədə Əxzi-əsgər idarələri təşkili haqqındakı layiheyi-qanuniyyə mövqeyi-müzakirəyə qonulur. Məruzəçi Qarabəyli Qarabəy (İttihad).

Layihə ümumiyyətlə və sonra maddə-maddə oxunaraq rəyə müraciət edilir və bilamüzakirə [müzakirəsiz] əksəriyyəti-ara [səs çoxluğu] ilə qəbula keçir.

**Hökumət fondu**

Bə'dəhu [sonra] Hökumətin 20 milyonluq fondunun 40 milyonadək artırılması, yəni qabaqca nəzərə alınmayan və fövqəladə məsarif üçün Hökumət ixtiyarına yenidən 20 milyon manat pul buraxılması haqqındakı layiheyi-qanuniyyə müzakirə edilir. Məruzəçi Mustafa bəy Vəkilov (Müsavat).

Məruzədən anlaşılır ki, neçə ay bundan müqəddəm [qabaq] fövqəladə məsarif üçün Hökumət ixtiyarına verilmiş olan 20 milyonun 17 milyonu sərf edilib qurtarmışdır. Şimdi yenidən 20 milyon pul buraxılmalıdır ki, gələcəkdə lazım olan yerə sərf edilsin. Layihə bilamüzakirə ittifaqi-ara ilə [yekdilliklə] qəbul olunur.

**Bakı Bələdiyyə İdarəsinə 10 milyon borc**

İkinci layihənin qəbulundan sonra bir neçə dəqiqəlik tənəffüs elan edilir.

Tənəffüsdən sonra:

**Sədr -** Parlamanın tapşırmasıyla Gürcüstan istiqlaliyyətinin səneyi-dövriyyəsi münasibətilə Gürcüstan Məclisi-Müəssisanı rəisi naminə böylə bir teleqraf göndərdik.

*(Oxuyur)*

"Teleqraf.

Tiflis. Gürcü Məclisi-Müəssisan sədrinə.

Məclisi-Məbusanın 26 mayıs tarixli qərarına görə, Sizin şəxsinizdə Gürcüstanı elani-istiqlal səneyi-dövriyyəsi münasibətilə təbrik və təhniyət edirəm. Azərbaycan milləti əmindir ki, bir illik müstəqil həyat keçirən Gürcüstan müstəqil bir dövlət olaraq yaşamağa müstəid [istedadlı] olduğunu isbat etmişdir. Azərbaycan Cümhuriyyətiylə Gürcüstanın tamamilə müttəhidən [birgə] çalışmaları hər iki dost-qonşu millətin rifahi-hal və səadətinə və qazanılmış istiqlalın möhkəmləşməsinə bir rəhn olacaqdır.

Yaşasın müstəqil Gürcüstan.

*Azərbaycan*
*Məclisi-Məbusan rəisi*
*Ağayev."*

Növbədəki məsələ Bakı Bələdiyyə İdarəsinə 5 faizlə 10 milyon manat borc verilməsi haqqındaki layiheyi-qanuniyyədir. Məruzəçi Musa Rəfiyev.

**Rəfiyev** - Bakı Bələdiyyə İdarəsinə keçən dəfələr pul borc verildikdə şəhərin əhvalı, Bələdiyyə İdarəsinin vəziyyəti və şəhər mədaxil və məxaricinin müvazinəsi və sairə haqqında öylə müfəssəl məlumat verilmiş və o qədər müzakirə olmuş ki, bu xüsusda təfsilən danışmağı lazım görməyirəm. Ancaq müxtəsərən bunu deməliyəm ki, şəhərin sənəvi mədaxili 30 milyona qədər olduğu halda, məxarici 83 milyona yetişir. Bu surətlə ildə 50 milyon manat açıqlıq əmələ gəlir. Bələdiyyə İdarəsi bu açıqlığı vəziyyəti-hazirədən dolayı özü qapaya bilmədiyindən, Hökumət və Məclisi-Məbusana müraciətlə 35 milyon manat borc istəyir. Fəqət Maliyyə Komissiyası bu məsələni ətraflıca müzakirə etdikdən sonra istənilən məbləği çox görüb qərar verdi ki, hələlik ancaq on milyon manat buraxılsın. Ona görə də heyəti-ümumiyyəyə də 10 milyon buraxmağı təklif edir.

Bu xüsusda İbrahim Əbilov (2 dəfə), Ağa Aşurov, Səmədağa Ağamalı oğlu, Əliağa Həsənov, Çubaryan, Yusifbəyli Nəsib bəy nitqlər irad edirlər [nitqlər söyləyirlər] (nitqlər gələcək nömrəmizdə) və layiheyi-qanuniyyə səsə qonularaq əksəriyyəti-ara [səs çoxluğu] ilə qəbul olunur.

**"Müsavat"ın sualı**

Nəhayət, Denikin qoşunlarının Dərbəndi işğalı münasibətilə "Müsavat" firqəsi tərəfindən Hökumətə böylə bir sual verilir:

*(Katib oxuyur)*

"Denikin ordusunun Petrovsk ilə Dərbəndi işğal etdiyi Hökumətə məlummudur, məlum olduğu təqdirdə Azərbaycan istiqlalını təhdid edən bu hadisəyə qarşı Hökumət nə nəzərlə baxır və bu xüsusda nə kimi tədbirlər görmüşdür?"

**Rəsulzadə Məhəmməd Əmin -** Camaat! Bilirsiniz ki, bu gün əfkari-milliyə böyük həyəcan içindədir. Bu da Dağıstanda vücuda gəlmiş bir hadisənin nəticəsidir. O hadisə isə Dabrovol qoşunlarının Petrovsku və Dərbəndi almalarıdır. Hətta şayiata görə, Könüllü ordu qitəatı [hissələri] Yalamada dəxi görülürmüş. Bu xəbərləri içimizdə yaşayan, bəlkə dabrovolları gözləyən və onların gəlməsindən şadlanan adamlar küyə salıb, hətta bəzi qəzetələr könüllülərin Qubaya yürüş etdiyini yazırlar. Ona görədir ki, camaat həyəcandadır. Əlbəttə, millət vəkili olan məbuslar və istiqlalımızı bəbək kimi müdafiə və mühafizə etməyi vəd etmiş olan Hökumətimiz bu xəbərlərə və demokratiyanın bu həyəcanına laqeyd baxa bilməz. Dağıstan Azərbaycanın qapısıdır. Dağıstanın denikinlər əlində olmasına Azərbaycanlılar heç vaxt səhlkarlıq ilə baxammazlar. Zira denikinlərin və Könüllü ordunun ümumiyyətlə yeni təşəkkül etmiş dövlətlər və xüsusən Azərbaycan haqqındakı qara niyyəti məlumdur. Hamı bilir ki, onların fikri köhnə hökuməti qaytarmaq və bütün yeni məmləkətləri ona tabe etməkdir. Böylə bir zamanda Bakı, Azərbaycan türk demokratiyası heç vaxt evində rahat durammaz. Bu halda lazımdır bu kürsüdən Hökumətin səlahiyyətdar sözü eşidilsin ki, camaat həm öz vəziyyətini bilsin, həm də vəzifəsin[i]. Camaat istiqlala o qədər mənus olmuş [isinişmiş], hürriyyət və istiqlal fikri o qədər xalqın qanına sinmiş, ruhuna işləmişdir ki, şimdi artıq istiqlal fikri bir firqənin, bir kütlənin arzusu deyil. Bütün camaat vətəni və milləti istiqlalsız və dövləti hürriyyətsiz təsəvvür edəmməyir. Binaileyh [ona görə], demokratiya bittəb [təbii olaraq] qapısında şübhəli

adamlar durmasına heç vəchlə razı olammaz və bir təni-vahid kimi [hamı bir nəfər kimi] hürriyyət və istiqlaliyyətinin müdafiəsinə hazırdır. *(Alqışlar)*

**Yusifbəyli Nəsib bəy** (Rəisi-vükəla) - Möhtərəm məbuslar! Varid [daxil] olan suala cavab verməkdən əvvəl mən burasını ərz etməliyəm ki, bu vaxtadək bizim sərhədimizi heç kəs keçməmişdir və ancaq meyitlərimiz üstündən keçə bilərlər. *(Hər tərəfdən şiddətli alqış, “bravo” sədaları)* Bir də sözümə keçmədən əvvəl, Dağıstan əhvalı haqqında sizə bir qədər məlumat verməyi lazım bilirəm. Üç gün bundan əvvəl Teymurxanşuradan Dağıstan Hökuməti nəzdindəki siyasi nümayəndəmizdən böylə bir teleqraf aldım.

*(Oxuyur)*

“Teleqraf.

Bakı. Xariciyyə Nəzarəti.

Dünən Petrovska böyük könüllü qüvvələri gəlməsi haqqında məlumat alınmışdır. Axşam Parlamanın iclası vaqe oldu. Hökumət rəisi zeyldəki [aşağıdakı] məlumatı verdi:

Könüllü ordu İttihadi-Cibaliyyun [Birləşmiş Dağlılar] Hökumətini tanımaqdan imtina ilə Dağıstan Hökumətini tanımaya razı olur və daxili işlərinə müdaxilə etməyərək, Dağıstan[ın] bolşeviklərə qarşı könüllülərə yardım edəcəyini təsəvvür edir. Könüllülər dəmiryol xəttini Yalamayadək tuturlar. Bu məqsəddən ötrü dünən Dərbəndə bir bölük gəlmişdir. Cibaliyyun Cümhuriyyətinin müqəddəratı Sülh Konfransında həll olacağı üçün şimdilik könüllülərlə mübarizəyə və etiraz etməyə qüvvətimiz olmadığından, Cibaliyyun Hökumətini qeyri-mövcud elan ediriz. Dağıstanda bütün ixtiyarat general Hacı Murada verilir.

Gecə saat birdə rəis Parlaman iclasını qapalı elan etdi. Təcili təbliğat bəkləyirəm.

*Haqverdiyev.”*

Sonra Quba qəza qaimməqamı və sairlərindən bir neçə məlumat alındı ki, Dağıstana 4 eşelon kazak qoşunu gəlmişdir. Bunlardan birisi Petrovsk və digəri Dərbəndi işğal etmişdir. Fəqət bu gün yeni bir məlumat alınmışdır ki, birincini təshih edir. Böylə ki, Azərbaycandaki Dağıstan siyasi nümayəndəsi mənə bir teleqraf göstərdi. Bu teleqrafdan anlaşıldı ki, Dağıstanda deyilən qədər də öylə böyük bir şey olmamışdır. Teleqrafı da Dağıstan Hökuməti rəisi Kotsev imza etmişdir. Dərbəndə gələn qüvvə haqqında məlumat var ki, oraya gələn az bir qüvvədir – iki yüz, üç yüz adam imiş. Fəqət doğrudur ki, Dərbəndə gəldikdən sonra orada bəzi nalayiq işlər görmüşlərdir. Məsələn, gərək Petrovskda və gərəksə Dərbənddə təhərri, axtarış, xırsızlıq olmuşdur. Mən bu xəbəri alaralmaz ilk əvvəl ingilis komandanlığı qarşısında şifahən və təhrirən [yazılı] protesto etdim. Bunu lazım bildiyimizin səbəbi də budur ki, əgər biz bu vaxtadək rahat oturmuşsaq, səbəbi bu olmuşdur ki, həmişə bizə demişlər: Könüllülər Dağıstan hüdudunu keçməyəcəklərdir. Və əgər Petrovskda az bir qüvvə saxlamağa lüzum görülmüş və orada bir az əsgər saxlanırsa, o da Petrovsk bəndərinin [limanının] bir baza qərar verilməsindən nəşət edən [irəli gələn] bir keyfiyyətdir. Yoxsa Könüllü ordu Dağıstanın sair yerlərinə tərəf hərəkət etməyəcəkdir. Buna görədir ki, biz birinci sualı ingilislərə verdik və etiraz da onlara etdik. Şifahən etiraz etməklə bərabər, İngiltərə komandanlığına bu məzmunda bir nota dəxi verdik:

*(Oxuyur)*

“İngiltərə komandanlığının Denikin ordularının Dağıstan hüdudunu keçməyəcəyi xüsusundaki mütəəddid [çoxsaylı] və’dlərinə rəğmən bu gün aldığımız məlumata görə, Könüllü ordu əsgərləri Dağıstan dəmiryollarını Yalama istasyonunadək işğal edirlər. Könüllü ordu qüvvələrinin Dağıstanda Azərbaycan hüdudunda bulunmasını Azərbaycan üçün böyük bir təhlükə ədd [hesab] edərək irəlidə möhtəməl vüquatın [ehtimal olunan hadisələrin] önünü almaq qəsdilə Azərbaycan Hökuməti İngiltərə Komandanlığı tərəfindən Könüllü ordunun Dağıstandan çıxarılması xüsusunda lazım olan ciddi tədbirlər ittixaz edilməsini [tədbirlər görülməsini] arzu edir.”

Bundan maəda [başqa] mən bəşəxsən ingilis nümayəndəsi Şattlvort ilə də görüşdüm. O mənə dedi ki, ingilislərin qərarı dəyişməmişdir və heç bir zaman Könüllü ordu Petrovskdan bəri keçməməlidir. Doğrudur, bir eşelon bəri tərəfə keçdiyi xəbər verilir. Fəqət kimin müsaidəsiylə və necə olmuş ki, keçmişdir, bu xüsusda bizdə heç bir məlumat yoxdur. Ancaq bu uğurda lazımi tədabir ittixaz etmişdir və ali məhafildən [dairələrdən] aldığı təlimatı bizə xəbər verəcəkdir. Əlbəttə İngiltərə Komandanlığı anlayır ki, biz bu məsələni sükuti-qəlblə danışa, bu işlərə, bu hərəkətlərə rahat baxa bilməriz. Dağıstan hər kimin əlində olur-olsun, istər Denikin, istər sair bir qüvvə, xülasə Dağıstan düşmən əlində olarsa, biz təhlükə altında qalarız. İngilis Komandanlığı bu işləri bir “nidarazumeniya” [anlaşılmamazlıq] adlandırır. Deyir ki, bunlar həp “nidarazumeniyadır”. Mən burada şifahən protesto etmək və nota verməklə bərabər, Tiflisdəki nümayəndəmizə də teleqrafən xəbər verdim ki, Müttəfiqlər Baş Komandanlığına həman notanı yetirsin. Mən İngiltərə nümayəndələrinə dedim ki, vədlərdən artıq bıqdıq. Bundan böylə biz də ancaq öz qüvvəmizə güvənəcəyiz və lazım gələrsə bir tənivahid kimi hamımız hürriyyət və istiqlalımızı müdafiəyə qalxışacağız. *(Ümumi alqış)* Və bu uğurda heç bir millət, hətta ən böyük millət və qüvvətlər belə bizə mane ola bilməz. *(Alqış)* Bu sözlərimə Şattlvort “Bu sizin haqqınızdır, bəlkə vəzifənizdir” deyə cavab verdi. Başqa dürlü cavab verə də bilməzdi.

*(Bitmədi)*

Moskvada təcrübə görmüş diş həkimi **K. S. Kolandskaya-Sanuxat** kabinə açmışdır. Müalicə edir, dişləri doldurur, süni dişlər qayırır və dişləri ağrısız çəkir. Qiymət münasibdir. Qəbul edir: Hər gün səhər saat 9-2-yədək; axşam saat 5-7-yədək. Adres: Bazarnı və Suraxanski küçələrin küncündə, nömrə 112.

*8795*

Doktor **M. M. Kərimov** göz naxoşlarını və diş həkimi **A. Əmirov** naxoşları qəbul edirlər saat 4-dən 7-yədək. Ünvan: Suraxanski və Spasski küçələrin [küncündə] 102 nömrəli evdə. Telefon nömrə 40-91.

*8754*

**Xüsusi müsəlman təvəllüdxanası**
**Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsa-mama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur.

Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-132*

**Doktor M. B. Şaxnazarov**

Dəri və əmrazı-cərrahiyyə [cərrahi xəstəliklər] naxoşluqlarını qəbul etməyə başlamışdır. "606" və "914" müalicəsi. Qəbul edir: səhər saat 9-dan 12-yədək; axşam saat 4-dən 7-yədək. Ünvan: Armyanski küçə nömrə 3. Qubernskinin küncündə. Telefon nömrə 45-28.

*8748*

**Diş həkimi E. S. Karşteynbaumun**

Diş müalicəxanası və süni diş laboratoriyası. Adres: Sisyanovski (Ləzginski) və Çadrovı küçələrin küncündə nömrə 41. Telefon 22-07. Qəbul edir səhər saat 6-dan 8-ədək; səhər saat 11-dən 2-yədək; axşam saat 4-dən 8-ədək. Dişlər ağrısız çəkilir və qızıl dişlər qayırılır.

*8779*

**Elan**

Bakıda giliz fabrikasında işləməyə mexanik müavini (pamoşnik) lazımdır. Xahiş edənlər bu adresə müraciət etsinlər: Karantinnaya küçədə ev nömrəsi 7, telefon nömrə 44-82

*8797*

### Arvad diş həkimləri
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlət münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*8753*

**Doktor Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Diş həkimi S. M. Hamburq**

Nikolayevski nömrə 29, Parlaman qarşısında. Telefon nömrə 5-96. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Dişləri ağrısız çəkir.

*8756*

**Doktor S. İ. Zaks**

Zöhrəvi, dəri və sifilis naxoşluqlarını qəbul edir. 606 və 914 müalicəsi. Naxoşları hər gün qəbul edir saat 4-dən 7-yədək. Vorontsovski küçə nömrə 43, 2-ci mərtəbə.

*8776*

**Berlin Darülfünunu doktoru**
**S. İ. Kopelioviç**

Daxiliyyə və əsəbiyyə naxoşluqlarını qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə. Telefon nömrə 50-28. Və 93.

*8765*

**Zəhmət (məsai) bürosu**

Bakı Şəfqət Bacıları İttifaqı şəfqət bacılarını gecə işlərinə, iynə vurmağa, masaj etməyə müərriflik edir [tövsiyə edir, zəmanət verir]. İttifaq öz işçilərinin işlərinə cavabdehdir. Xahiş edənlər bu adresə müraciət edə bilərlər: Budaqovski və Malakanski küçələrin küncündə, nömrə 16/22, mənzil 6. Konkanın mənzili. Telefon nömrə 14-08. Büro bütün gün açıqdır.

*8755*

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir***





## QEYD VƏ ŞƏRHLƏR

**Elan**

səh. 407. Farsca. Mənası:

"Əlahəzrət Sultan Əhməd şah Qacarın (Allah onun mülkünü və səltənətini əbədi etsin) tacqoyma mərasimi münasibətilə 27 şəban çərşənbə günü, Ali İran Dövlətinin konsulluğunda səhər saat 10-dan günortadan sonra saat 2-yə kimi rəsmi qəbul keçiriləcəkdir. Bütün iranlıların o gündə tacqoyma mərasimində iştirak etməsi vacibdir.

Ali İran Dövlətinin konsulu Məhəmməd Səidul-vüzəra."

**İstiqlaliyyət**

səh. 411. "La ikrahə fid-din": Quran, Bəqərə surəsi, 256-cı ayə. Mənası: "Dində məcburiyyət yoxdur."

"Əl-ədl mimarül-ərz": Ərəbcə; mənası: "Ədalət yer üzünü abad edər."

səh. 412. "Be-pərri-xiş bayəd kərdi-pərvaz, / Be-bali-digəran nətvan pəridən": Farsca beyt; mənası: "Öz qanadınla uçmalısan. Başqalarının qanadıyla uçmaq mümkün deyil."

**Şərəfli bayram**

səh. 417. "X. İ.": bu imza Xəlil İbrahimə məxsusdur.

**Türk şüərası və istiqlal**

səh. 418. "Qəza hər feyzini, hər lütfünü bir vəqt üçün saxlar, / Fütur etmə, saqın, millətdəki zə'fü bətaətdən.": "(İnsanın başına gəlməli olan işlərin — qədərin gerçəkləşdiyi an olan) qəza öz bolluq-bərəkətini, nemətlərini müəyyən bir vaxta saxlayar (hər şeyin öz vaxtı var); saqın ola ki, millətdəki zəiflik və süstlüyü görüb də bezib usanma."

"Biz ol ali-hüməm ərbabi-cəhdü ictihadız

kim, / Cahangiranə bir dövlət çıxardıq bir əşirətdən.": "Biz o uca himmətli, ali məqsədli, çox çalışan və səy göstərən adamlarıq ki, kiçik bir tayfadan dünyanı tutan bir dövlət qurmuşuq."

"İki şey sevdirir həyatı bana: / Biri hürriyyət, axəri sevda. / Edərəm eşq üçün həyatı fəda, / Feyzi-hürriyyətin yolunda fəqət / Eşqü sevdanı eylərəm ifna!": "Mənə həyatı sevdirən iki şey var: biri hürriyyət, digəri isə məhəbbət. Eşq üçün həyatı qurban verərəm, hürriyyət kimi böyük bir nemətin yolunda isə eşqi də, məhəbbəti də puç edərəm." Misralar türk şairi Abdullah Cövdətin Aleksandr Dümadan tərcüməsidir.

səh. 419. "Məhəbbətin ikinci dərəcəsi həmcinslər arasında, yaxud əfradi-millətin ittihadıdır ki, bunu şair böylə tövsif edir:": qəzetdə "tövsif" yerinə "tövsiyə" getmişdir.

"Ümumu müstəfid etməz xüsusun haqqını ibtal, / Saqın bir fərdi əzmə, qeyrəti-əfrad lazımsa.": "Bir nəfərin haqqının tapdalanması, cəmiyyət üçün də xeyirli deyil; millətin bütün fərdlərini nqeyrətini çəkmək lazımdırsa, saqın, bir fərdi əzmə." Şeir türk şairi Namiq Kamalındır.

səh. 419-420. "Usanmaz kəndini insan bilənlər xalqa xidmətdən, / Mürüvvətmənd olan məzluma əl çəkməz ianətdən.": "Özünü insan sayan, xalqa xidmət etməkdən yorulmaz. Mərhəmət və şəfqət sahibləri, məzlumlara əl tutmaqdan əl çəkməz." Şeir türk şairi Namiq Kamalındır.

səh. 420. "Növ'i-insan həşrədək təzim edərlər adına, / Kim fədayi-nəfs edərsə cinsinin imdadına.": Kim öz cinsinin — insanların imdadına çatmaq üçün şəxsi arzularını qurban verərsə, bəşəriyyət (qiyamətdən sonra insanların dirilmə günü olan) həşr gününə kimi onun adını hörmətlə yad edər." Şeir türk şairi Ziya Paşanındır.

"Bargahi-ədli viran eyləyənlər, adəmin / Başına zindan edər dünyanı abad etsə də.": "Ədalət sarayını yıxıb viran edənlər, bütün dünyanı abad etsə də, o dünya adamlar üçün zindan kimi olar." Şeir Namiq Kamalındır.

"Zalimləri ədlin nə zaman xak edəcəkdir? / Məzlumların çıxmadadır göylərə ahı!": "Ədalətin zalımları nə vaxt torpaq edəcək; məzlumların ahı göyə çıxmaqdadır." Şeir Ziya Paşanındır.

"Gavə": İran əfsanəsinin qəhrəmanı.

"Zöhhak": İran əfsanəsinin qəhrəmanı.

"Bir əbdi-həbəş dəhrə olar bəxtilə sultan, / Zöhhakın edər mülkünü bir Gavə pərişan.": "Bir qara qul bəxti sayəsində dünyaya sultan olan; Gavə (kimi sıravi bir dəmirçi) Zöhhak (kimi zalım bir hökmdarın) səltənətini yıxar." Şeir Ziya Paşanındır.

"Bəni-növ'ün xilas et atəşin qeydi-əsarətdən, / Cahanda bir də firdövs eyləmək icad lazımsa.": "Dünyada bir də cənnət icad etmək lazımdırsa, insanlığı əsarətin atəşli zəncirindən xilas et." Şeir Namiq Kamalındır.

"Xuni-ərbabi-həmiyyət qərq edər zalimləri, / Məş'əli-əfkari-əhraranə sönməz xun ilə!": "Qeyrətli adamların qanı zalımları boğar, azadlıq fikrinin məşəli qanla sönməz!" Şeir türk şairi Abdullah Cövdətindir.

"Həqir olduysa millət şanına nöqsan gələr sanma, / Yerə düşməklə cövhər saqit olmaz qədrü qiymətdən.": "Millət həqir olsa da, bundan onun şanına əskiklik gəlməz; cövhər yerə düşməklə qədir-qiymətini itirməz." Şeir Namiq Kamalındır.

"Musiqilər təranə-saz olsa, / Sinələr cayi-ehtizaz olsa, / Guşimə millətin ənini gəlir!": Musiqilər çalınsa, bundan sinələr cuşa gəlsə də, mənim qulağıma millətin ahı, inildəməsi gələr!": Şeir Abdullah Cövdətindir.

"vətən xarabələrini behiştə oxşadır, hübbi-vətəni böyləcə tövsif edir:": qəzetdə "tövsif" yerinə tövsiyə getmişdir.

"Vətən xarabəsi məncə behişti-əladır, / Xarabələr gəzərəm mən çəmən, çəmən deyərək.": "Vətənin xarabəsi də mənim nəzərimdə cənnətin ən uca yeri kimidir; (bülbül öz gülüstanını istədiyi kimi,) mən də çəmənçəmən deyərək o xarabələrdə gəzərəm." Şeir türk şairi Süleyman Nazifindir.

"Xəlqi-aləm bittəbi hübbi-vətən məcburudur, / Min gülüstana dəyişməz bum bir viranəyi.": "Bütün dünya əhalisi vətənini sevməyə məcburdur; bayquş (özünün) bir viranəsini min gülüstana dəyişməz." Şeir türk şairi Əsəd Müxlis Paşanındır.

"Nə yari-can imişsən, ah ey ümmidi-istiqbal! / Cahanı sənsən azad eyləyən min yə'sü möhnətdən.": "Ey gələcək ümidi, sən nə qədər də candan sevilən bir sevgili imişsən; cahanı min ümidsizlikdən, min çətinlikdən azad edən də sənsən." Şeir Namiq Kamalındır.

"Vücudun kim xəmiri-mayəsi xaki-vətəndəndir, / Nə qəm, rahi-vətəndə xak olarsa cövrü möhnətdən?": "İnsan bədəninin mayasının xəmiri vətən torpağındandır; vətən yolunda çəkilən əziyyət və möhnətdən bədənimiz yenidən torpaq olsa da, qəm çəkməyə dəyməz." Şeir Namiq Kamalındır.

"Əvət, igidlər, əvət, siz fədayi-nəfs ediniz! / Vətən yolunda fədayi-həyat edən ölməz!": "Bəli, igidlər, şəxsi arzularınızı qurban verin; (çünki) öz həyatını vətən yolunda qurban edənlər ölməz." Şeir Tofiq Fikrətindir.

**Azərbaycan istiqlalı**

səh. 422. "moskoflar": "ruslar" mənasında işlədilmişdir.

"ikinci xəlifə həzrətləri": Ömər ibn Xəttab nəzərdə tutulur.

səh. 423. "Milləti-məhkumə olmaq əziyyəti canımızdan çıxmamışdır.": qəzetdə "çıxmamışdır" yerinə "çıxmamaqdır" getmişdir.

**Böyük bir gün**

səh. 424. "Möminlərdən bir rical vardır ki, Cənabi-həqlə əhd ettdikləri şeyə sədaqət göstərirlər": Quran, Əhzab surəsinin 23-cü ayəsindən götürülmüşdür.

səh. 425. "Ə. Həmdi": bu imza Əhməd Həmdi Qaraağazadəyə məxsusdur.

**Gənc nəslə**

səh. 426. "(T. F.)": türk şairi Tofiq Fikrət nəzərdə tutulur.

"bunların həpsindən ibarət bir məmləkət var ki": qəzetdə "bunların həpsindən" yerinə "həpsindən bunların" getmişdir.

**Yanardağ...**

səh. 427. "Ki yeki həsto hiç nist cözuv / Vəhdəhu la ilahə illahu": Farsça və ərəbcə qarışıq beyt. XVIII əsr İran şairlərindən Hatif İsfahaninindir. Mənası: "O, təkdir, Ondan başqa heç bir ilah yoxdur."

səh. 428. "dost qoşunları komandanı ... bəyi": qəzetdə belə getmişdir, komandanın adının yerinə üç nöqtə qoyulmuşdur.

səh. 429. "Piri": bu imza Piri Mürsəlzadəyə məxsusdur.

**Milli bayram münasibətilə**

səh. 433. "yoluna düşməyi qəsd və iradə etməzmi?": qəzetdə "iradə" yerinə "idarə" getmişdir.

"axırda murad etmədiyimiz heçaheç nəticələr qarşısındaydıq": qəzetdə "murad etmədiyimiz" yerinə "murad etdiyimiz" getmişdir.

**Azərbaycan Məclisi-Məbusanında**

səh. 435. "edadi": edadi məktəbləri təhsildə universitetdən əvvəlki mərhələyə məxsus məktəblər idi.

"Daxil olmuş kağızlar, o cümlədən: a)": bu maddənin bəndləri qəzetdə ərəb əlifbasının hərf sırasına uyğun olaraq "əlif, bə, tə..." kimi verilmişdir.